# 50 000 manat...

## Türkiyədə prezidentliyə namizədlər üçün maliyyə vəsaiti ayrılıb



**Türkiyədə prezidentliyə namizəd üçün 555 980 lirə (təxminən 50 000 manat) maliyyə vəsaiti ayrılıb.**

"Report" xəbər verir ki, bunu Türkiyə Mərkəzi Seçki Komissiyasının (YSK) sədri Ahmet Yener bildirib.

Onun sözlərinə görə, müstəqil deputatlığa namizəd üçün 55 598 lirə (təxminən 5 000 manat) maliyyə vəsaiti ayrılıb.

*Qeyd edək ki, Türkiyədə Prezident və parlament seçkiləri bu il mayın 14-də keçiriləcək.*



# Əfv Komissiyasının iclası keçirilib

## 100-dən çox müraciətə baxılıb

**Bu gün Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası keçirilib.**

"Şərq"in xəbərinə görə, iclasda 100-dən çox müraciətə baxılıb.

*Qeyd edək ki, komissiya indiyə qədər 1300-dən çox müraciətə baxıb.*


№ 47 (5808) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 15 mart 2023-cü il (çərşənbə)





# Sərnişin tələbatı qarşılanacaq

## Bakı-Ağstafa marşrutu üzrə axşam reysi təyin edilir

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti Novruz bayramı ilə əlaqədar olaraq Bakı-Ağstafa marşrutu üzrə artmaqda olan sərnişin tələbatını qarşılamaq məqsədilə 18 mart tarixində sayca 3-cü reysi təyin edir.**

Qurumdan bildirilib ki, müvafiq tarixdə Bakı Dəmiryol Vağzalından saat 17.00-da yola düşən qatar mənzilbaşına saat 21:55-də çatacaq.

Xatırladaq ki, 18 mart tarixində səhər saat 08:25-də Ağstafaya yola düşən ilk sürətli qatar saat 13:20-də, 08:45-də yola düşən ikinci qatar isə saat 13:40-da Ağstafaya çatacaq.

Bakı-Ağstafa marşrutu üzrə səfər edən sərnişinlərin bayram tətilinin sonunda paytaxta rahat və vaxtında çatdırılmasında əlavə reysə ehtiyac yaranarsa müvafiq qaydada təmin ediləcək.

*Qeyd edək ki, Bakıdan Ağstafaya hərəkət edən sürətli sərnişin qatarının yolda olma müddəti 4 saat 55 dəqiqədir. Qatarın orta sürət göstəricisi isə 100km/ saat təşkil edir.*



# Bakı Brüssel sülh gündəliyini dəstəkləyir

## Prezident İlham Əliyev: "Azərbaycan və Ermənistan arasında razılaşma əldə etmək üçün yaxşı şans var"



**"Ermənistanla sülh müqaviləsinin imzalanması istiqamətində təmaslar davam etdirilir. Sülh müqaviləsinin imzalanmasının təşəbbüskarı Azərbaycandır, bu məqsədlə Azərbaycan tərəfindən 5 prinsip irəli sürülüb".**

Bu barədə Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə görüşdə bildirib. Dövlət başçısı qeyd edib ki, hazırda sülh müqaviləsinin imzalanması istiqamətində tərəflər arasında təmaslar davam etdirilir. Prezident Azərbaycanın Şarl Mişelin təşəbbüsü ilə başladılmış Brüssel gündəliyinə sadiqliyini bir daha ifadə edib. Qeyd olunub ki, Brüssel platforması əsasında qəbul edilmiş bəyanatlar Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasının əsasını təşkil edir.

(səh.2)

# Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri martın 14-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Berlin şəhərinin Brandenburq "Willy Brandt" aeroportunda Azərbaycan Prezidentini rəsmi şəxslər yola saldılar.

# Laçın yolunda post qurulmalıdır

## Bundan sonra separatçılar və onlara havadarlıq edənlər qaçmağa başlayacaqlar



**Martın 13-ü axşam saatlarından martın 14-ü səhər saatlarınadək Ordumuzun mövqeləri 19 dəfə fasilələrlə atəşə tutulub. Bu barədə Azərbaycan Müdafiə Nazirliyi məlumat verib.**

Qeyd olunub ki, Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu, Basarkeçər rayonunun Yuxarı Şorca, Qaraiman, Günəşli, Gorus rayonunun Qaraşen istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun İstisu, Mollabayramlı, Laçın rayonunun Cağazur, Daşkəsən rayonunun Astaf və Təzəkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Bundan başqa, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Xocalı rayonu istiqamətində yerləşən mövqeləri də atəşə tutulub.

(səh.3)

# Çörəyin ucuzlaşması gözlənilən idi

## Bu il buğda istehsalının artacağı proqnozlaşdırılır




**Çörəyin qiyməti ucuzlaşıb. Bir neçə gündür ki, 650 qramlıq dairəvi çörəyin ("zavod çörəyi") qiyməti 70 qəpikdən 65 qəpiyə düşüb.**

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin məlumatında bildirilir.

Qeyd edilir ki, çörəyin qiymətində ucuzlaşma Dövlət Xidmətinin istehlak bazarına nəzarət tədbirləri çərçivəsində əhalinin istehlak səbətində xüsusi yer tutan ərzaq məhsulları, o cümlədən un və çörək bazarında mütəmadi monitorinqlərin nəticələrinə əsasən müşahidə olunub.

(səh.5)



# Kürdə suyun azalmasının səbəbləri məlum olub

**Kür çayında suyun Azərbaycan ərazisində azalmasının əsas səbəbləri su anbarlarında toplanması və qonşu ölkələrdə çayın suyundan istifadənin artmasıdır.**

Trend xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Rafiq Verdiyev deyib.

Onun sözlərinə görə, Kür çayı ölkəyə daxil olanda onun müəyyən hissəsi su anbarlarında toplanılır.

"Anbarlarda su toplanmasa, yay aylarında əkin sahələrinin suvarılmasında ciddi problemlə qarşılaşarıq. Ümumilikdə, əvvəlki illərlə müqayisədə ölkəyə daxil olan suyun həcmi azalıb. Bunun paralelində qonşu ölkələrdə sudan istifadə də artıb ki, bu da Kür çayının suyunun azalmasına təsirsiz ötüşməyib".

# 3 nəfər vəfat edib

## Koronavirusa 65 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycanda son sutkada koronavirus infeksiyasına 65 yeni yoluxma faktı qeydə alınıb, 48 nəfər müalicə olunaraq sağalıb.**

"Şərq" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada COVID-19-dan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 829 011 nəfərin xəstəliyə yoluxması faktı müəyyən edilib, onlardan 818 638 nəfər müalicə olunaraq sağalıb, hazırda 226 aktiv xəstə var. Bu günə qədər 10 147 nəfər vəfat edib.

*Məlumata görə, son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1 558, bu günə qədər isə ümumilikdə 7 543 617 test icra olunub.*

# Azərbaycanda milli su strategiyası layihəsi hazırlanıb



**Ölkəmizdə milli su strategiyası layihəsi hazırlanıb və yaxın zamanda dövlət başçısına təqdim edilməsi nəzərdə tutulur.**

Bunu Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Rafiq Verdiyev "Ekspert saatı"nda deyib.

Onun sözlərinə görə, məqsəd planlaşma dövründə müasir idarəetmə prinsipinə əsaslanan su idarəsini təmin etməkdir. "Biz bununla sudan qənaətlə istifadə edə biləcəyik", - deyə o qeyd edib.



# Qapımız açıqdır

## Qarabağdakı haylar gec-tez reinteqrasiya ilə razılaşacaqlar

(səh.3)



# İranda dərin siyasi və sosial narazılıq atəşi hələ sönməyib

## Xalq yenə küçələrdə rejim əleyhinə nümayişlərə başlayacaq

(səh.4)



# Bakı Brüssel sülh gündəliyini dəstəkləyir

## Prezident İlham Əliyev: "Azərbaycan və Ermənistan arasında razılaşma əldə etmək üçün yaxşı şans var"

**"Ermənistanla sülh müqaviləsinin imzalanması istiqamətində təmaslar davam etdirilir. Sülh müqaviləsinin imzalanmasının təşəbbüskarı Azərbaycandır, bu məqsədlə Azərbaycan tərəfindən 5 prinsip irəli sürülüb".**

Bu barədə Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə görüşdə bildirib. Dövlət başçısı qeyd edib ki, hazırda sülh müqaviləsinin imzalanması istiqamətində tərəflər arasında təmaslar davam etdirilir. Prezident Azərbaycanın Şarl Mişelin təşəbbüsü ilə başladılmış Brüssel gündəliyinə sadiqliyini bir daha ifadə edib. Qeyd olunub ki, Brüssel platforması əsasında qəbul edilmiş bəyanatlar Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasının əsasını təşkil edir.

**"Avropa İttifaqı-Azərbaycan əlaqələri istiqamətində çox önəmli addımlar atılır"**

Ölkə başçısı bildirib ki, Avropa İttifaqı-Azərbaycan əlaqələri istiqamətində çox önəmli addımlar atılır: "Xüsusilə keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji təhlükəsizliyi üzrə Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu bizim niyyətimizi göstərir. Memorandumun sürətlə və vaxtında icrası bir daha göstərir ki, Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır". Prezident vurğulayıb ki, Avropa məkanına qaz ixracatı artırılacaq: "Əgər 2021-ci ildə Avropaya 8 milyard kubmetr qaz ixrac etmişiksə, bu il bu rəqəm haradasa 12 milyard kubmetrə çatacaq. Bu rəqəmin Azərbaycanın ümumi qaz ixracatının yarısı olduğunu vurğulayan dövlət başçısı qeyd edib: "Gələcək illərdə öz ixrac coğrafiyamızı Avropada genişləndirmək istərdik".

**"Gələcəkdə Azərbaycan Avropaya təkcə təbii qaz yox, yaşıl enerjini ixrac edən ölkəyə çevriləcək"**

Prezident bildirib ki, Azərbaycanın çox geniş bərpaolunan enerji potensialı var. Təkcə Xəzər dənizinin külək enerji potensialı 157 qiqavata bərabərdir. Artıq bir neçə kontraktın imzalandığını vurğulayan dövlət başçısı bildirib: "Əminəm ki, gələcəkdə Azərbaycan Avropaya təkcə təbii qaz yox, yaşıl enerjini ixrac edən ölkəyə çevriləcək".

Prezident qeyd edib ki, separatizmə münasibətdə vahid yanaşmanın olması zəruridir. Dövlət başçısı eyni zamanda Ermənistanın qeyri-konstruktiv mövqeyinə də toxunub. Ermənistanın Laçın yolundan hərbi və qeyri-qanuni daşımalar üçün istifadə etməsi, Rusiya sülhməramlılarının yerləşdiyi ərazilərimizdə hələ də hərbi mövcudluğunu qoruması, ərazidə hələ də Ermənistana məxsus hərbi texnikanın olması Almaniya Prezidentinin diqqətinə çatdırılıb.

**"Laçın yolunun son nöqtəsində Azərbaycanın sərhəd-keçid məntəqəsinin qurulması artıq labüddür"**

Dövlət başçısı Berlində Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə görüşündə Laçın yolunda keçirilən etiraz aksiyasına da toxunub. Prezident bu aksiyanın Ermənistanın Laçın yolundan qeyri-qanuni daşımalarına qarşı olduğunu bildirib. Laçın yolunun son nöqtəsində - Ermənistan-Azərbaycan sərhədində Azərbaycanın sərhəd-keçid məntəqəsinin qurulmasının artıq labüd olduğunu qeyd edib: "Ermənistan üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırmaqla, Zəngəzur dəhlizinin reallaşdırılmasına mane olur".

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan və Ermənistan arasında razılaşma əldə etmək üçün yaxşı şans var: "Xüsusən də ötən ilin oktyabrında Soçidəki görüşlərdən sonra Ermənistanın və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıdığı bir zamanda. Bu sazişi gec-tez imzalamaq yaxşı fikirdir. Biz beynəlxalq hüquqa əsaslanan və bizim mövqeyimizə görə sülh sazişinin əsasını təşkil etməli olan beş prinsip işləyib hazırlamışıq". Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan Prezidentinin Administrasiyası tərəfindən Qarabağın erməni ictimaiyyəti nümayəndələri reinteqrasiya məsələləri və bir sıra infrastruktur layihələrinin həyata keçirilməsi üzrə təmasların davam etdirilməsi üçün Bakıya dəvət olunub.

**"Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi 5 prinsip əsasında imzalana bilər"**

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanma prosesini, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin missiyasını, Brüssel sülh gündəliyini dəstəkləyir. Ölkə başçısı məhz bu əsnada aparılan görüşlərdə, qəbul edilən bəyanatlarda sülh müqaviləsinin və sülh gündəliyi platformasının müəyyən olunduğunu diqqətə çatdırıb. Dövlət başçısı qeyd edib ki, beş prinsipi özündə əhatə edən sülh müqaviləsinin imzalanması ilə bağlı təşəbbüs məhz Azərbaycan tərəfindən irəli sürülüb və iki ölkə arasında sülh müqaviləsi bu prinsiplər əsasında imzalana bilər: "Azərbaycanın mövqeyi iki yanaşmadan ibarətdir. Birinci yanaşma Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması, ikinci yanaşma isə Azərbaycanın Qarabağın erməni sakinləri ilə dialoqun həyata keçirilməsidir".

Dövlət başçısı bildirib ki, Laçın yolunun blokadada olması barədə Ermənistanın iddiaları tamamilə əsassızdır. Bəyan edib ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdə Ermənistan silahlı qüvvələrinin mövcudluğu Azərbaycanı narahat edir. Prezident Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğunun və Laçın yolundan hərbi məqsədlər, hərbi daşımalar üçün istifadənin Azərbaycan tərəfini narahat etdiyini bildirib.

**"28 il BMT qətnamələrini icra etməyən Ermənistan cəmi 44 gündə öz məğlubiyyəti ilə barışmalı oldu"**

Prezident İlham Əliyev deyib ki, Azərbaycan 30 ilə yaxın erməni işğalına məruz qalıb: "Bu işğal və etnik təmizləmə nəticəsində torpaqlarımızın 20 faizinə yaxını işğal altına düşdü və 1 milyon azərbaycanlı Ermənistan tərəfindən öz doğma torpaqlarından qovulmuşdu və qaçqın-köçkün vəziyyətinə düşmüşdü. Biz iki il yarım bundan əvvəl Vətən müharibəsi nəticəsində öz ləyaqətimizi, ərazi bütövlüyümüzü, hüquqlarımızı döyüş meydanında bərpa etdik, Ermənistanı məğlub etdik və məcbur etdik ki, Ermənistan bizim torpaqlarımızdan çıxsın. Beləliklə, 28 il ərzində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməyən Ermənistan cəmi 44 gün ərzində öz məğlubiyyəti ilə barışmalı olmuşdu".

**Şolts yenə erməniləri məyus etdi**

Almaniya Kansleri Olaf Şolts Prezident İlham Əliyevlə mətbuata birgə keçirilən mətbuat konfransında sualları cavablandırarkən deyib ki, Almaniya "Dağlıq Qarabağ"ı respublika kimi tanımamışdı. Xatırladaq ki, daha əvvəl Ermənistan Baş naziri Nikol Paşinyanın Almaniya səfəri zamanı bu məsələ müzakirə olunmuşdu. Erməni mediası Almaniya Kansleri Olaf Şoltsun açıqlamasını fərqli formada tirajlamışdı. Erməni mediasında qeyd olunurdu ki, guya, Olaf Şolts "Dağlıq Qarabağ" vətəndaşlarının öz müqəddəratını təyinetmə hüququ baxımından sülh yolu ilə həllə nail olunmasına böyük əhəmiyyət verir. Görüşdən sonra Almaniya hökumətinin saytında Almaniya kansleri Olaf Şoltsun sözügedən açıqlaması isə qeyd olunmamışdı, bu da ermənilər tərəfindən ciddi narazılıqla qarşılanmışdı. Budəfəki açıqlamasında isə Şolts növbəti dəfə erməniləri məyus edib. Ermənilər ciddi-cəhdlə elə bir görüntü yaratmağa çalışırdılar ki, guya, Almaniya siyasi rəhbərliyi onların separatçı fəaliyyətini dəstəkləyir. Lakin Prezident İlham Əliyevlə birgə keçirilən mətbuat konfransı zamanı Almaniya Kansleri Olaf Şolts jurnalistin "Siz Qarabağı Azərbaycan ərazisi kimi tanıyırsızmı" sualına "Beynəlxalq səviyyədə Almaniya "Dağlıq Qarabağ"ı respublika kimi tanımamışdı və bununla bağlı da o vaxtı Almaniya öz mövqeyini bildirmişdi" deyə cavablandırdı.

**İsmayıl**

# Azərbaycan-ABŞ hərbi əməkdaşlığı və regional təhlükəsizlik müzakirə olunub



**Martın 14-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ABŞ-ın Avropa Komandanlığının tərəfdaşlıq, təhlükəsizlik və siyasət imkanları üzrə direktor müavini briqada generalı Edvard Voqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Əvvəlcə qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının xatirələrini ehtiramla yad ediblər.

Nümayəndə heyətini salamlayan Baş Qərargah rəisi onlara Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatlar, azad edilən ərazilərdə görülən işlər, həmçinin Azərbaycan-Ermənistan şərti dövlət sərhədi və Qarabağ iqtisadi rayonundakı cari vəziyyət barədə məlumat verib.

Görüşdə ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətləri üzrə əldə edilmiş müsbət nəticələrdən, o cümlədən Oklahoma ştatının milli qvardiyası ilə Azərbaycan Ordusu arasında qarşılıqlı əlaqələrin cari vəziyyətindən məmnunluq ifadə edilib.

Briqada generalı E.Voqan Azərbaycan Ordusunun hərbi qulluqçularının Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasına verdiyi töhfəyə görə minnətdarlığını bildirib, mövcud əməkdaşlığın inkişafının vacibliyini diqqətə çatdırıb.

*Sonda Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlığın perspektivləri və regional təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.*

# Əziz Ələkbərli baş nazirə cavab verib

## "Paşinyan Ermənistandan azərbaycanlıların qovulması faktını inkar etməyə cəhd göstərib"



**Ermənistanın baş naziri Nikol Paşinyan bugünkü mətbuat konfransında Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtma hüququ ilə bağlı qeyri-konstruktiv və insan hüquqlarına zidd yanaşma sərgiləyib.**

*Bu fikirlər Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərlinin bəyanatında əksini tapıb.*

Bəyanatda, həmçinin bildirilir: "Xüsusilə təəssüf doğuran haldır ki, baş nazir Ermənistandan azərbaycanlıların qovulması faktını inkar etməyə cəhd göstərib. Baş nazir çox yaxşı bilir ki, Ermənistan hökuməti 1988-ci ildə yüz minlərlə azərbaycanlını məhz etnik ayrı-seçkilik əsasında, fiziki şiddət tətbiq edərək, ərzaqdan, təhsildən, tibbi və sosial xidmətlərdən məhrum edərək qovub. Bu insanların əksər hissəsinin çox qısa bir müddət ərzində (24 noyabr - 5 dekabr 1988-ci il) qovulmuş olması onlara qarşı cinayətin nə dərəcədə sistemli və mütəşəkkil aparıldığını göstərir.

Ermənistandan azərbaycanlıların qovulması insanlıq əleyhinə cinayətdir. Baş nazirin diqqətinə çatdırmaq istərdik ki, insanlıq əleyhinə cinayəti inkar etmək həmin cinayətin davamıdır.

Bundan başqa, baş nazirin bizim geri qayıtmaq hüququmuzu dərhal ərazi müstəvisində görməsi çox mətləbdən xəbər verir. Ermənistanın hökumət başçısının təbirincə, müəyyən etnik qrupun kompakt yaşaması ancaq və ancaq ərazi iddiası deməkdir. Məhz bu düşüncə tərzi Ermənistanın monoetnik əraziyə çevrilməsini, Azərbaycana qarşı ərazi iddialarını və işğalçılıq siyasətini izah edir.

Bir daha vurğulamaq istərdik ki, beynəlxalq zəmanət və verifikasiya mexanizmləri altında təhlükəsiz və ləyaqətlə geri qayıtmaq bizim əzəli və təməl haqqımızdır. Bizim geri qayıtmaq hüququmuz mütləqdir və müzakirə mövzusu deyil. Biz İcma olaraq bu hüququmuzu sülh və dialoq yolu ilə reallaşdırmaqda qərarlıyıq. Baş nazirə bir daha çağırış edirik ki, insan haqlarının aliliyinə hörmət etsin və qayıdışımıza əngəl törətməyi dayandırsın".



# Şagirdlərlə görüş...

## Britaniya səfiri Zəngilanın Ağalı kəndinə gedib

**Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld Zəngilan rayonunun Ağalı kəndinə səfər edib.**

Bu barədə səfir "Twitter" hesabında bildirib.

"Səməninin yaşıl cücərtisi kimi bu kənd də dağıntılar dövründən sonrakı həyatın ilk nişanələridir. Ağalıda uşaqlar Britaniya və Azərbaycanın birgə səyləri nəticəsində yenidən təhlükəsizlikdə təhsil ala bilirlər", - diplomat qeyd edib.

"Gələn həftə mən ilk dəfə olaraq Novruz bayramını qeyd edəcəyəm. Bunu səbirsizliklə gözləyirəm.

Bu, mənim bura ikinci səfərimdir. Keçən dəfə mən bura qışda gəlmişdim, indi isə bahardır. Səməninin yaşıl cücərtisi kimi bu kənd də dağıntılar dövründən sonrakı həyatın ilk nişanələridir. Mən dünən Füzuli ətrafında ANAMA-nın cəsur işçiləri tərəfindən aparılan minatəmizləmə əməliyyatını izlədim. Sizin torpaqlarınızın yenilənməsini görmək çox xoşdur. Mən qürur duyuram ki, Britaniya səfirliyi bu dəstəyi göstərə bilir. Bu vacib və təhlükəli işi aparan mütəxəssislərin duyduğu qürur çox aydın görünürdü. Siz də bu yerlərə yenidən həyat gətirdiyiniz üçün özünüzlə qürur duymalısınız", - diplomat vurğulayıb.

# *"Gürcü Arzusu":* Saakaşvili siyasi məhbus deyil, cinayətkardır

**Mixeil Saakaşviliyə siyasi məhbus münasibəti göstərilməsi Avropa Parlamentində mövcud olan korrupsiya problemlərini göstərir.**



APA-nın Tbilisi müxbiri xəbər verir ki, bunu Gürcüstanın hakim "Gürcü Arzusu" partiyasının sədri İrakli Kobaxidze keçirdiyi brifinqdə deyib. O, sabiq Prezident Mixeil Saakaşvilinin siyasi məhbus olmadığını, cinayətkar olduğunu vurğulayıb.

"Bizim üçün bu əlbəttə ki, son dərəcə qəbuledilməzdir, Mixeil Saakaşvili ən ciddi cinayətlərə görə həbs edilmiş cinayətkardır", - deyə Kobaxidze bildirib.

*Qeyd edək ki, dünən Avropa Parlamentində "Öldürülməsi əmr edilmiş siyaasi məhbuslar: Vladimir Kara-Murza, Mixeil Saakaşvili, Aleksey Qorinov" adlı debat keçiriləck.*

# Komitə təklif irəli sürdü

## Azərbaycanda 17 yaşlı qızların nikahı qadağan oluna bilər

**"Qızlarımız kiçik yaşda ağır ailə yükünü çiyinlərində daşıya bilmirlər. Bu cür ailələrdə zorakılıq halları daha çox olur".**

*Bunu Report-a açqlamasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva deyib.*



A.Sofiyeva qanunvericilikdə nikah yaşının 18 yaş nəzərdə tutulduğunu xatırladıb:

"Lakin xüsusi hallar olarsa, 1 ildən çox olmamaqla, yəni 17 yaşda yerli icra hakimiyyətləri tərəfindən müraciətə əsasən, bu məsələlər qiymətləndirilir və icazə ilə əlaqədar qərar verilir. Sözügedən məsələ ilə bağlı beynəlxalq təcrübə öyrənildi, eyni zamanda milli qanunvericiliyin analizi, təhlili nəticəsində belə bir təklif irəli sürdük ki, 17 yaşda nikah kəsilməsi üçün qəbul edilən üzrlü səbəblər götürülsün. Çünki həmin səbəblər uşaqlarda müəyyən neqativ halların baş verməsinə səbəb olur".

"Uşaqlar erkən evliliyə cəlb olunduqda təhsildən kənarda qalır, eyni zamanda əsasən, qızlarımız kiçik yaşda ağır ailə yükünü çiyinlərində daşıya bilmirlər. Bu cür ailələrdə zorakılıq halları daha çox olur. Həmçinin tibbi baxımdan da gənc qızların ana olması doğulan körpələrdə və anada müəyyən fəsadlara gətirib çıxara bilir. Bütün bunları nəzərə alaraq komitə kimi belə bir təklif irəli sürmüşük", - A. Sofiyeva vurğulayıb.

Qeyd edək ki, Ailə Məcəlləsinə əsasən, Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur. Sənəddə bildirilir ki, üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər.



**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında qeyd etdi ki, dünya bazarlarında, xüsusilə Azərbaycan üçün əsas idxal bazarlarında ərzaqlıq buğdanın qiymətində baş verən ucuzlaşma çörəyin qiymətinin enməsinə səbəb olub:**

- Əslində bu, gözlənilən idi. Çünki son dövrlərdə dünya bazarlarında ərzaqlıq buğdanın qiymətində ucuzlaşma vardı. Ümumiyyətlə, bu il buğda istehsalının artacağı proqnozlaşdırılır. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı Dünya Buğda Bazarı üzrə gözləntilərinə əsasən, 2022/2023-cü il mövsümündə qlobal buğda istehsalı 2 faiz artacaq. Həmçinin buğda ixracının bərpa olunması, istehsalın həcmində gözlənilən artım qiymətlərə mümkün təzyiqləri müəyyən qədər azaldır. Ötən ilin iyul ayında İstanbulda BMT, Ukrayna, Türkiyə və Rusiyanın iştirakı ilə imzalanan və sonuncu dəfə 120 günlüyünə uzadılan "Taxıl saziş"inin daha 60 gün prolonqasiya olunması razılaşdırılıb. Bu, taxıl bazarının perspektivinə dair nikbin proqnozun formalaşmasında mühüm rol oynayır. Bu vəziyyət ölkə daxilində də unun qiymətinin aşağı düşməsinə, paralel olaraq da çörəyin ucuzlaşmasına gətirib çıxarır. Unun topdansatış qiymətinin aşağı düşməsi öz növbəsində çörəyin qiymətinə birbaşa təsir edir. Qiymətin ucuzlaşmasına təbii ki, ərzaqlıq buğda idxalının ƏDV-dən azad edilməsi də müsbət təsir göstərir. Buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı 2017-ci il yanvarın 1-dən 7 il müddətinə ƏDV-dən azad edilib. Bu, həm istehsalçıya, həm də istehlakçılara sərfəlidir. Nəticədə hər iki tərəf üçün də uyğun, münasib qiymətin formalaşması mümkün olur.

# Çörəyin ucuzlaşması gözlənilən idi

## Bu il buğda istehsalının artacağı proqnozlaşdırılır

**Çörəyin qiyməti ucuzlaşıb. Bir neçə gündür ki, 650 qramlıq dairəvi çörəyin ("zavod çörəyi") qiyməti 70 qəpikdən 65 qəpiyə düşüb. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin məlumatında bildirilir.**

Qeyd edilir ki, çörəyin qiymətində ucuzlaşma Dövlət Xidmətinin istehlak bazarına nəzarət tədbirləri çərçivəsində əhalinin istehlak səbətində xüsusi yer tutan ərzaq məhsulları, o cümlədən un və çörək bazarında mütəmadi monitorinqlərin nəticələrinə əsasən müşahidə olunub. Un bazarında isə 50 kq-lıq bir kisə unun topdansatış qiyməti 9 mart 2023-cü il tarixində 35,5 manat - 37,2 manat olub. Qeyd edilir ki, 2022-ci ilin avqust ayında bu göstərici 40,7 manat - 41,5 manat təşkil edib. Son dövrlərdə dünya bazarlarında, xüsusilə də Azərbaycan üçün əsas idxal bazarları olan Rusiya və Qazaxıstanda ərzaqlıq buğdanın qiymətində baş verən ucuzlaşma ölkəmizdə bazar prinsiplərinə uyğun olaraq tələb-təklif əsasında formalaşan unun qiymətlərinə təsirsiz ötüşməyib. Daxili bazarda unun topdansatış qiymətinin aşağı düşməsi çörəyin qiymətinə də birbaşa təsir edib. Qeyd etmək lazımdır ki, cari ilin fevral ayında ərzaqlıq buğdanın orta aylıq idxal dəyəri 307,4 ABŞ dolları təşkil edib ki, bu da, 2022-ci ilin avqust ayı (354,4 ABŞ dolları) ilə müqayisədə 13 faiz aşağıdır. Bundan əlavə, Dövlət Xidməti istehlak bazarına nəzarət tədbirləri çərçivəsində müvafiq sahədə bazar iştirakçıları ilə mütəmadi görüşlər keçirir. Bu görüşlərdə buğda, un və çörək qiymətlərinin mütənasibliyinə, çörəyin etiketində göstərilən çəkisi ilə faktiki çəkisinin uyğunluğuna dair müzakirələr aparılır. Bu çərçivədə ictimaiyyətin məlumatlandırılması məqsədilə un istehsalçılarının təklif etdiyi unun topdansatış qiymətlərinə dair məlumatlar Dövlət Xidmətinin rəsmi internet səhifəsində yerləşdirilib və mütəmadi yenilənir.

**Məlahət Rzayeva**

# Vilayət Quliyevə Şirməmməd Hüseynov mükafatı təqdim olunub




**2022-ci il üzrə Şirməmməd Hüseynov mükafatı Azərbaycanın keçmiş xarici işlər naziri, hazırda ölkəmizin Bosniya və Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevə təqdim olunub.**

Parlament Jurnalistlər Birliyinin (PJB) təşkilatçılığı ilə martın 14-də Mətbuat Şurasında mükafatın təqdimetmə mərasimi keçirilib.

Tədbirdə Şirməmməd Hüseynovun ailə üzvləri, Milli Məclisin deputatları və jurnalistlər iştirak ediblər.

PJB sədri Elşad Eyvazlı V.Quliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, diplomatiyasının uğuru, tarixinin və ədəbiyyatının araşdırılması sahəsindəki xidmətlərindən danışıb. O vurğulayıb ki, V.Quliyev bu sahələrdə böyük əmək sərf edib, ciddi nailiyyətlər qazanıb, Azərbaycan dövlətçiliyinə, tarixinə, mənəvi dəyərlərinin qorunmasına misilsiz töhfələr verib.

"Vilayət Quliyevin həm xarici işlər naziri, həm səfir, həm də tədqiqatçı alim kimi fəaliyyəti, xüsusilə də Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, qurucuları barədə araşdırmaları ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan o, Azərbaycan dövləti və xalqı qarşısında göstərdiyi xidmətlərə görə Şirməmməd Hüseynov mükafatına layiq görülüb", - təşkilat sədri söyləyib.

E.Eyvazlı V.Quliyevə təşəkkür edib.

Mətbuat Şurasının sədri Rəşad Məcid də V.Quliyevin Azərbaycan qarşısında xidmətlərindən danışıb, onun mükafata layiq olduğunu diqqətə çatdırıb.

V.Quliyev mükafata görə Parlament Jurnalistlər Birliyinə təşəkkür edib. O bildirib ki, artıq 19 ildir səfir kimi fəaliyyət göstərir və Azərbaycandan kənarda yaşayır: "Mənim ürəyimdə elə bir məhəbbət var ki, həyatımın sonuna kimi Azərbaycana xidmət edəcəyəm, ölkəmizin tarixi ilə bağlı məsələləri tədqiq edəcəyəm. İndiyə qədər bir neçə mükafat almışam, amma Şirməmməd Hüseynov mükafatı mənim üçün çox qiymətlidir. Çox sağ olun!", - o bildirib.

*Qeyd edək ki, PJB Şirməmməd Hüseynov mükafatını 2019-cu ildə təsis edib. 2020-ci ildə Şirməmməd Hüseynov mükafatının qalibi diplomat, araşdırmaçı alim, diaspor fəalı Ramiz Abutalıbov, 2021-ci ildə isə Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva olub.*

# Ermənistan Bakıdan cavab alıb

## Ancaq Paşinyanın məqsədi yenə prosesi uzatmaqdır

**Ermənistan Baş naziri Nikol Paşinyan mətbuat konfransında Azərbaycanla aparılan danışıqlardan, sülh müzakirələrindən bəhs edib. Baş nazir vurğulayıb ki, Bakı sülh müqaviləsinin mətni ilə bağlı İrəvanın fevral ayının ortalarında göndərdiyi təkliflə cavab verib. Paşinyan bildirib ki, 2-3 gün əvvəl Ermənistan Azərbaycandan cavab alıb:**

"İrəliləyiş varmı? Qeyd etməliyəm ki, müəyyən irəliləyiş görürük". Bununla belə, Paşinyan danışıqlarda irəlilədikcə, daha çox fundamental problemlərin ortaya çıxdığını iddia edib. Onun sözlərinə görə, 2020-ci ilin üçtərəfli bəyanatından fərqli olaraq, İrəvan və Bakı arasında razılaşma effektiv olmalıdır: "Azərbaycanla imzalanacaq sülh müqaviləsi üçün zəmine ehtiyac var. Sülh müqaviləsinin zəminə ehtiyac var deyəndə, müqavilələrin yerinə yetirilməsi üçün təminatların olmasını nəzərdə tuturuq. Ola bilsin ki, hansısa mərhələdə bu məsələnin həlli olacaq və təklif irəli sürüləcək. Bizim üçün vacib olan zamin institutu deyil, zəmanət institutudur". Paşinyan Azərbaycan və Ermənistan liderlərinin görüşü barədə razılıq olmadığını söyləyib. Praqa görüşünü Brüssel danışıqlarından daha effektli sayıb. Paşinyan həmçinin Praqa formatını genişləndirərək ABŞ və Almaniyanı da bu formata əlavə edə biləcəklərini qeyd edib: "Əgər Azərbaycan Fransanın Praqa formatında olmasından razı deyilsə, onu genişləndirmək, məsələn, Almaniya, ABŞ-ni dəvət etmək olar". Baş nazir yeni eskalasiya təhlükəsindən də danışıb: "Eskalasiya təhlükəsi realdır. Məhz mümkün eskalasiyanın qarşısını almaq, vəziyyəti izləmək üçün İrəvan avropalı




müşahidəçilərdən ibarət missiya göndərməyi xahiş edib. Ermənistan Laçın dəhlizinə və Qarabağa faktaraşdırıcı missiya göndərməyi təklif edir".

**Erməni baş nazirin ikibaşlı bəyanatlarını "Şərq"ə dəyərləndirən millət vəkili Elman Məmmədov bildirib ki, İrəvan hökumətinin məqsədi heç də sülhün tezliklə imzalanması deyil. Deputatın sözlərinə görə, Paşinyanın nala-mıxa vurması göstərir ki, Ermənistan rəhbərliyi sülh müzakirələrində irəliləyiş tərəfdarı deyil və ona görə də qeyri-səmimi mövqe sərgiləyir:** "Paşinyanın məqsədi müzakirələr prosesini mümkün qədər uzatmaqdır. Bunu da ancaq müxtəlif bəhanələrlə etmək olar. Bir müddət öncə dedilər ki, sülhlə bağlı təkliflərini Bakıya göndəriblər, indi bildirirlər ki, Bakıdan cavab alıblar və s. Ancaq Azərbaycan tərəfi müharibədən sonra ən optimal təklifləri, 5 baza prinsiplərini İrəvana təqdim edib. Hətta İrəvandan müsbət reaksiya da gəlmişdi, lakin sonradan proses pozuldu. Paşinyan hökuməti Azərbaycan tərəfinin qəbul etməyəcəyini bilə-bilə qəsdən sərsəm təkliflər irəli sürdü. Ermənistanın vaxtı uzatmaqda məqsədi odur ki, onlara vəd verən, himayə edən Fransa və İran kimi dövlətlərə, ermənilər ağılda olan bəzi beynəlxalq qurumlara hələ də ümid bəsləyirlər. Zənn edirlər ki, dostları sayəsində yenə də güclənəcəklər və aldıqları hərbi dəstəklə yenidən Azərbaycan torpaqlarını işğal etmə şansı qazanacaqlar. Əsas problem odur ki, ermənilər hələ də xəstə, xam xəyallardan tam xilas olmayıblar. 44 günlük müharibədə aldıqları dərs onları ağıllandırmaq üçün kifayət etməyib. Dərk etmirlər ki, onları təhrik edən dövlətlər sadəcə öz maraqlarını güdürlər və kritik məqamda meydanı tək buraxacaqlar. Anlamırlar ki, bütün iddiaları ayaq altında qalmağa, boş xəyalları puç olmağa məhkumdur".

*Parlament üzvü vurğulayıb ki, Ermənistana normal dildə nəyisə başa salmaq imkansızdır:* "İllərlə davam edən müzakirələrin, danışıqların nəticəsiz qalması bunun bariz isbatıdır. Müharibə və ondan sonrakı lokal əməliyyatlar göstərdi ki, ermənilər ancaq güçdən, hərbi təzyiqdən anlayırlar. "Donuz öz xoşuna darıdan çıxmırsa, onu zopalarla çıxartmaq lazımdır". Ermənilərin qandırmaq üçün yenə də başlarını əzməliyik. Əmin olun, bizi çox gözəl başa düşəcəklər və biləcəklər ki, sülh yolunda konkret hansı addımları atmaq lazımdır. Ancaq indiki məqamda ermənilərin müharibə sevdasına düşməsi təkcə Qarabağdakı separatçı tör-töküntüləri təmizləməyəcək, həm də tarixi torpaqlarımızda qurulan "Ermənistan Respublikası"nın mövcudluğu məsələsini də sual altında qoyacaq".

**İsmayıl Qocayev**

**Martın 13-ü axşam saatlarından martın 14-ü səhər saatlarınadək Ordumuzun mövqeləri 19 dəfə fasilələrlə atəşə tutulub. Bu barədə Azərbaycan Müdafiə Nazirliyi məlumat verib.**

Qeyd olunub ki, Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu, Basarkeçər rayonunun Yuxarı Şorca, Qaraiman, Günəşli, Gorus rayonunun Qaraşen istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun İstisu, Mollabayramlı, Laçın rayonunun Cağazur, Daşkəsən rayonunun Astaf və Təzəkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.




# Laçın yolunda post qurulmalıdır

## Bundan sonra separatçılar və onlara havadarlıq edənlər qaçmağa başlayacaqlar

Bundan başqa, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Xocalı rayonu istiqamətində yerləşən mövqeləri də atəşə tutulub. Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**Ermənistanın ağalarının verdiyi tapşırığı yerinə yetirdiyini deyən ehtiyatda olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərov "Şərq"ə vurğulayıb ki, Paşinyanın Putinlə danışığının ardından belə hadisənin olması bunu bir daha sübut edir:** "Rəsmi Moskva var gücü ilə çalışır ki, Azərbaycanla Ermənistan arasında yaxınlaşma olmasın. Yeni onlar sülh müqaviləsinin imzalanmasının və sərhədlərin delimitasiyasının qarşısını almaq istəyirlər. Mart ayı başlayandan elə gün olmur ki, atəşkəs pozulmasın. Hətta sonuncu dəfə Azərbaycan mövqeləri minaatanlardan atəşə tutulub. Bu, məqsədyönlü şəkildə edilir ki, tərəflər bir araya gəlməsin. O ki qaldı bizim ermənilərə Bakıda görüş təklif etməyimiz, gəlin özümüzü ucuzlaşdırmayaq. Biz onların oyuncaq olduqlarını və vaxt qazanmaq istədiklərini yaxşı bilirik. Ermənistan "ustalıqla" bu vaxtı əldə edib ordusunu qurur. Hətta mətbuatımızda iddia olunur ki, ortalığı qarışdıran Putin yox, Paşinyan imiş. Belə yazıları oxuyanda adamın "əti ürpəşir".

*Ekspert qeyd edib ki, bu dəqiqələrdə İrəvanda Paşinyan mətbuat konfransı keçirir:* "Guya onlar sülh istəyir və təkliflərini Bakıya göndəriblər. Lakin ermənilər yaxşı bilir ki, Azərbaycan öz ərazilərində ikinci Ermənistanın qurulmasına imkan verməyəcək. Amma yenə də belə şeylərdən danışırlar. Ümumiyyətlə, onlar bir mərkəzdən müxtəlif fikirlər səsləndirərək uğurla vaxt qazanırlar.

Bu səbəblə də vaxt itirmədən müəyyən işlər görülməlidir. Bu işin görülməsi antiterror əməliyyatlarına başlanılsın demək deyil. İlk növbədə Laçın yolunda post qurulmalıdır və oradan keçənləri yoxlamaq lazımdır. Bundan sonra isə separatçılar və onlara havadarlıq edənlər qaçmağa başlayacaqlar".

"Qarabağdan Ermənistana gedib-gələnlərin təzə Laçın yolu ilə hərəkət edəcəkləri və yolda nəzarət-buraxılış məntəqəsinin qurulacağı günə çox az qalıb"

# Qapımız açıqdır

## Qarabağdakı haylar gec-tez reinteqrasiya ilə razılaşacaqlar

**Prezident Administrasiyası Qarabağın erməni ictimaiyyətinin nümayəndələrini reinteqrasiya ilə bağlı təmasların davam etdirilməsi üçün ikinci görüşə dəvət edib. Görüşün yaxın günlərdə Bakı şəhərində keçirilməsi təklif olunub. Bundan öncə ilk görüş Xocalıda baş tutub.**

Lakin Xankəndidəki separatçı rejim növbəti görüşün Bakıda keçirilməsi təklifinə ermənilərin adından "yox" deyib. Onlar görüşün yalnız Rusiya sülhməramlılarının vasitəçiliyi ilə keçirilməsi və humanitar, texniki məsələlərin müzakirə edilməsini istəyiblər. Həmçinin özlərini "tərəf" kimi təqdim ediblər. Yəni reinteqrasiya prosesinə yaxın durmayacaqlarını vurğulayıblar. Əslində, separatçılardan başqa münasibət gözləməyə dəyməzdi. Çünki Bakıya gəlmələri "tərəf" olmaqdan imtina etmək və reinteqrasiya prosesini qəbul etmək demək idi. Rusiyanın da buna imkan vermədiyi bəllidir. Lakin ermənilərin görüşdən imtina etmələri də Bakının əlini gücləndirir. Bu arada Ermənistanın Baş naziri Nikol Paşinyan da Azərbaycanın Qarabağ ermənilərinə Bakıda danışıqların davam etdirilməsi ilə bağlı təklifinə münasibət bildirib. Baş nazir deyib ki, artıq bu təşəbbüsə yekun cavab verilib: "Qeyd olunub ki, danışıqlar eyni formatda, Rusiya sülhməramlılarının vasitəçiliyi ilə, eyni yerdə aparılmalıdır".

Yəni erməni baş nazir də separatçıların çaldığı havaya oynayıb.

**Millət vəkili Sahib Alıyev bildirib ki, Prezident Administrasiyasının Qarabağdakı hayların təmsilçilərini Bakıda keçirilməsi planlaşdırılan ikinci görüşə dəvətinə separatçıların "xarici işlər nazirliyi"nin "yox" cavabı bizim üçün heç bir anlam daşımır. Deputatın sözlərinə görə, hər bir ölkədə olduğu kimi Azərbaycanda da ancaq bir Xarici İşlər Nazirliyi var:** "Bizim mövqeyimiz ortadadır. Prezident Administrasiyasının çağırışı o deməkdir ki, Qarabağdakı hayların təmsilçiləri reinteqrasiya istəyirlərsə, buyurub gəlsinlər. Onlara qapımız açıqdır. Əminəm ki, orada eləsi var və sayları heç də az deyil. Çox keçmədən səslərini çıxaracaqlar. Qarabağdan Ermənistana gedib-gələnlərin təzə Laçın yolu ilə hərəkət edəcəkləri və yolda nəzarət-buraxılış məntəqəsinin qurulacağı günə çox az qalıb. Yeni marşrutun tam işləmə üçün Ermənistanda çəkilən 12 km-lik yol artıq hazır kimidir. Əgər haylar onun istismarını qəsdən gecikdirməyə çalışsalar, yenə fakt qarşısında qoyulacaqlar. Bizimlə ancaq rus sülhməramlı kontingentin rəhbəri Volkovun kontrolu altında ünsiyyətə hazır olduqlarını bildirən separatçı ünsürlərə gəldikdə isə, çox maraqlıdır, sülhməramlılar 2025-ci ildə Qarabağı tərk edəndə ermənilər hara getməyi planlaşdırırlar?!".



**İsmayıl Qocayev**

REPORTAJ



# Kasıb ailənin üzü heç gülmür

## Hər bayramda qiymətlər bahalaşır

**İlaxır - Torpaq çərşənbəsidir. Artıq Novruz bayramına sayılı günlər qalıb. Şəhər əhalisi həm axır çərşənbə, həm də bayram bazarlığı edir, süfrə açmağa hazırlaşır. Bayram bir tərəfdən özü ilə sevinc gətirir. Digər tərəfdən, əhalinin aztəminatlı hissəsi bazarlardakı bahalaşma səbəbindən süfrəyə lazım olan təamları düzə bilməməyin kədərini yaşayır.**




**Şəkərbura-paxlava,**
**bəzək verir xonçaya.**
**Bahar necə yaraşır Azərbaycana?..**

Bəs görəsən, qiymətlər cibimizə necə "yaraşır"? Elə bu suala cavab tapmaq üçün bayrama görə şəhərin müxtəlif yerlərində qurulan piştaxtalara, bir neçə mağazaya üz tutdum.



Müşahidələrimə görə, bayram bazarlığı etmək istəyiriksə, cibimizdə xeyli para olmalıdır.

Marketlərdə qiymətlər - xurma 2 manat 50 qəpik, xurma qurusu 4-5 manat, alma 1-2 manat 50 qəpik, armud 2 manat 50 qəpik - 3manat 40 qəpik, kivi 2 manat, portağal 1 manat 60 qəpik-=2 manat 50 qəpik, mandarin 2 manat 50 qəpik, nar 3-4 manat, qabıqlı qoz 3 manat 50 qəpik, qabıqlı fındıq 4 manat, badam 4 manat 25 qəpik, 300 qram kişmiş 2 manat, qoz ləpəsi 16-25 manat, badam ləpəsi 22-28 manat, ərik qurusu 12-20 manat, alça qurusu 10-15 manat, düyü 10-15 manat, mal əti 12-18 manat, "8-ci km bazarı"nda da vəziyyət dəyişkəndir: qoz ləpəsi 10-25 manat, qabıqlı qoz 3 manat, fındıq ləpəsi 10-16 manat, qabıqlı badam 18-28 manat, qreyfrut 2 manat 50 qəpik, qabıqlı şabalıd 7-8 manat, ərik 12-16 manat, iydə 6-8 manat, innab 8-10 manat, mal əti 14 manat, kişmiş 10-15 manat, ərik qurusu 12 manat, alça 9-10 manat, düyü 4 manat.

Metronun "Elmlər Akademiyası" stansiyası ətrafındakı yarmarkada xurma qurusu 8 manat, qabıqlı qoz 4 manat, qabıqlı fındıq 6 manat, qoz ləpəsi 14-20 manat, badam ləpəsi 16 manat, qarışıq çərəzlər 9 manat, alça qurusu 5 manat 50 qəpik olduğu nəzərə çarpır.

Novruzun simvolu səməninin qiyməti isə 2 manatdan başlayır, ölçüsünə görə dəyişir.

### Piştaxtalarda qiymətlər fərqlənir

Şəhər sakini Gülnarə Namazova deyir ki, piştaxtalarda qiymətlər fərqlənir, bahaçılıqdı. Digər şəhər sakini Elnarə Nəsirova isə qiymətlərin normal olduğunu söyləyir.

### "Məqam axtarırlar, adamı soysunlar"

**Ruhiyyə Mövsümova:** "İki gün əvvəl qiymətlər 2-3 manat aşağı idi. Bayram yaxınlaşdı, qiymətlər də yüksəldi".

**Nailə Abbasova:** "Xaricdə çox olmuşam. Orda "Christmas" bayramı ərəfəsində qiymətlər aşağı enir. Kasıb ailənin belə bayram keçirtməsinə şərait yaradırlar. Amma bizimkilər qiyməti yüksəltməyə məqam axtarırlar, adamı soysunlar".

Nailə xanımla sağollaşırdıq ki, "Həmişə sizdən qaçmışam. Bu dəfə məni tuta bildiz" -, deyərək jurnalistlərin "yaralı yerinə" toxundu.

### "Özün ki, azərbaycanlı balasısan"

*Piştaxtaya göz gəzdirən alıcı Rauf Feyziyevə yaxınlaşdım:*

- Bayramınız mübarək!
- Sizinlə bahəm.
- Qiymətlər necədir, sizi qane edirmi?
- Yox, heç ürəkaçan deyil. Bütün bayramlarda qiyməti qaldırırlar. Özün ki, azərbaycanlı balasısan".

Nə deyim, Rauf bəy, bayramqabağı bahalaşan qiymətlər artıq bir ənənəyə çevrilib...

*"Elmlər Akademiyası" metrostansiyası yaxınlığında yerləşən mağazalardan birinə daxil oldum. Satıcı Fuad Namazov isə alıcılıq qabiliyyətinin aşağı olmağından gileyləndi:* "Quru meyvə satış yerləri çoxdur. Ona görə də alıcılıq sıfır dərəcəsindədir. Yarmarkalardakı məhsullar ilə mağazadakı məhsullar fərqlənir. Yarmarka ucuz mal satır. Qapalı şəraitə uyğun olaraq, mağazamızda qiymətlər normaldır".

### "Neçəyə olsa da, məcburuq, almalıyıq"

Alıcı Nuray Qədirli: "Xonça aparmalıyıq. Neçəyə olsa da, məcburuq, almalıyıq".

Görünür, qiymətlər nə qədər yüksək olsa belə, hər kəs bu xoş günü qeyd etmək niyyətindədir.

Novruz dirilik, yaşam, ruzi-bərəkət bayramıdır. Bazardakı durumdan müəyyən qədər məlumat verməyə çalışdım. İndi özünüz deyə bilərsiz, qiymətlər "əl yandırır, ya yox. Süfrələrinizin hər zaman bol, arzularınızın həmişə həyata keçməsi diləyi ilə...

**Hazırladılar: Aygün Tahir, Elmar İbrahimli**





# İranda dərin siyasi və sosial narazılıq atəşi hələ sönməyib

## Xalq yenə küçələrdə rejim əleyhinə nümayişlərə başlayacaq

**İranın bir neçə şəhərində fars-molla rejiminə qarşı yenidən etiraz aksiyaları başlayıb. Tehran, Məşhəd, Sənəndəc, Məlayir və Soyuqbulaq (Mahabad) şəhərlərinin küçələrində nümayişlər keçirilib. Etirazçılar "ölüm olsun edam respublikasına", "biz yenidən qayıtdıq, inqilab davam edir", "ölüm olsun**

Xamneiyə" və başqa şüarlar səsləndiriblər. Aksiyaları genişləndirən əsas səbəblərdən biri də İranda molla rejiminə qarşı çıxdıqları üçün həbs edilənlərin kütləvi edam olunmasıdır. Mövcud rejimə etiraz etdiyi üçün edam edilənlərin sayı gündən-gündən artmaqdadır. Edama məhkum olunanların anaları da aksiyalara qoşulublar. Onlar repressiv qüvvələrə qarşı şüarlar səsləndirib və uşaqlarının azadlığa çıxmasını tələb ediblər.

**Təbriz Araşdırmaları İnstitutunun sədr müavini, dr. Babek Şahed "Şərq"ə açıqlamasında bildirib ki, İranda baş verən proseslər ölkəni yeni mərhələyə çıxarıb. Ekspertin sözlərinə görə, "nə olur-olsun, köhnə İran olsun" məntiqi işləməyəcək:** "İranda sosial bazada köklü və geri dönüşü qeyri-mümkün dəyişikliklər, transformasiyalar baş verib. İran hökuməti sosial bazadakı dəyişikliklərin siyasi hakimiyyətə, dövlətin məntiq və mexanizminə yansımasının problemini yaşayır. Son bir ayda İranda vəziyyətin nisbətən normallaşdığı görüntüsü yaransa da, bu, müvəqqəti haldır. İran cəmiyyəti ilk fürsətdə, xüsusən cəmiyyətin həssaslığına toxunan bir hadisə olduğunda yenə küçələrdə rejim əleyhinə nümayişlərə başlayacaq. Bir neçə gündür bəzi şəhərlərdə davam edən nümayişlər də bunu göstərir. İranda dərin siyasi və sosial narazılıq atəşi hələ sönməyib və kül altında köz kimi mövcud olmaqda davam edir. İlk küləkdə köz yenidən alovlanacaq. İranda baş verən etirazların əsas səbəbi rejimin ciddi legitimlik böhranından əziyyət çəkməsidir. Ara-sıra küçələrdə sakitlik olması Tehran hökumətinin legitimlik əldə etməsi kimi görülməməlidir. Zahidan başda olmaqla Sistan və Bəlucistan bölgəsində etirazlar son 5 ayda fasiləsiz davam edir və artıq ənənə halını almaqdadır. Hər cümə günü cümə namazından sonra bəluc xalqı rejimə və inqilab lideri Xameneiyə etirazını bildirir".

*Babek Şahed bildirib ki, nümayişlərin davamlı olmasının ən mühüm nəticəsi rejimin yekun qərar verməsi ilə nəticələnə bilər:* "İranın sosial tələbləri nəzərə almadan indiki şəraiti davam etdirməsi, paralel olaraq cəmiyyəti sakitləşdirməyə, onları özünə tabe etdirməyə çalışması qeyri-mümkündür. İran son qərarını verərək ya tam diktatura, şəriət və fiqh hökmlərinin qanuniliyi ilə ictimai tələblərə məhəl qoymamalıdır, ya da ictimai tələblərə boyun əyərək struktur islahatları aparmalıdır. Ancaq düşünürəm ki, bu, Xamneyinin ölümündən sonra İranın yaşayacağı keçid dövründə baş verəcək. Yəni nə qədər ki, Xamneyi sağdır, İran rəhbərləri vəziyyəti bu və ya digər şəkildə idarə etməyə çalışacaqlar. Amma Xamneyinin ölümündən sonra onlar son qərarlarını verməli olacaqlar. İndiki etirazlar İranda toplumun dəyişməsini göstərir ki, bu da siyasi gücə təsir göstərən ən mühüm faktordur və prosesdə təsirli olacaq".

**İsmayıl Qocayev**

# Sinan Oğan prezidentliyə namizəd olacaq

## Onun seçkilərə qatılması əsas iddialıların səsinə təsir edəcək





**Türkiyədə prezidentliyə namizədlərin ərizələrinin qəbuluna 19 martda başlanacaq. Namizədlərin siyahısı 31 martda "Resmi Gazete"də dərc olunacaq. Siyahısı dərc olunandan sonra namizədlər təşviqat kampaniyasına başlaya biləcəklər. Seçki yaxınlaşdıqca siyasi bloklar və namizədlər də artmaqdadır.**

*Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Bağçalıya qarşı ilk müxalifət bayrağını Azərbaycan əsilli keçmiş millət vəkili, Iğdırın Melekli kəndində dünyaya göz açmış siyasətçi Sinan Oğan açıb.* Sağ partiyalardan ibarət yeni siyasi koalisiya - "Ata İttifaqı" seçkilərdə Sinan Oğanın namizədliyini irəli sürüb. Sağ bloka Zəfər Partiyası (Umut Özdağ), Ədalət Partiyası, Doğru Partiya, Türkiyə İttifaqı Partiyası və Ölkəm Partiyası daxildir. Bu, Türkiyədə formalaşdırılmış dördüncü siyasi koalisiyadır. Sinan Oğan TİKA-nın Azərbaycan nümayəndəsi olub. TÜRKSAM-ı qurub və sədr vəzifəsini icra edib. O, 2011-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə "Tərəqqi medalı"na layiq görülüb. 2015-ci ildə MHP-dən çıxarılsa da, məhkəmə yolu ilə yenidən partiyaya qayıdıb. 2017-ci il martın 10-da Yusif Halacoğlu və bir neçə digər üzvlərlə birlikdə partiyadan xaric edilib. Oğan həm də Ermənistandakı Metsamor Atom Elektrik Stansiyasının bağladılması istiqamətində fəaliyyəti səfərbər edən vətəndaş təşəbbüsü qurumunun qurucusu və koordinatorudur. Milliyətçi Hərəkat Partiyasının gələcəyi üçün həyəcan zənglərinin çalındığına diqqət çəkən Sinan Oğan MHP-nin getdikcə iqtidara namizəd partiya olmaqdan uzaqlaşdığını dilə gətirib. O, prezident seçiləcəyi təqdirdə kimi vitse-prezident təyin edəcəyini açıqlayıb: "İttifaqımızla müzakirələr nəticəsində seçiləcəyim təqdirdə vitse-prezident postuna Sevda Özbek xanımın gətirilməsinə qərar verilib".

**Tanınmış araşdırmaçı-jurnalist, "Çapar" jurnalının baş redaktoru Dilqəm Əhməd "Şərq"ə açıqlamasında Sinan Oğanın namizəd olacağını əvvəldən bildiyini deyib. Ekspert vurğulayıb ki, yanvar ayında Bakıda təşkil edilən I Turan Kitab Festivalına gəldiyi zaman köməkçisindən bu barədə məlumat alıb:** "Şübhəsiz, Türkiyədə seçki mücadiləsi əsasən "Millət və Cümhur ittifaqları" arasında baş tutacaq. Amma digər namizədlər bu iki ittifaqın səslərinə təsir edəcək. Ümumiyyətlə, Türkiyə Parlamentində qardaş ölkədə yaşayan azərbaycanlıların təmsilçisi yox kimidir. Orada nə qədər Azərbaycanı sevən insan olsa, bizə xeyirdir. Sinan bəy Azərbaycanda yaşamış, işləmiş bir şəxs olaraq bizim dərdlərimizə aşinadır. Ona görə də onun hər hansı bir uğuru bizi sevindirəcək".

*Xatırladaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan seçkilərin 14 mayda keçirilməsi ilə bağlı sərəncam imzalayıb və Yüksək Seçki Qurumu tərəfindən təsdiq edilib.*

**İsmayıl Qocayev**

# 5 min üzvü bir araya gətirmək çətin məsələdir

## Böyük ehtimalla bəzi siyasi partiyalar fəaliyyətini dayandıracaq

**Azərbaycanda fəaliyyət göstərən siyasi təşkilatların əksəriyyəti "Siyasi partiyalar haqqında" yer alan tələblərə uyğunlaşmaq üçün ciddi hazırlıq görürlər. Təbii ki, bütün partiyalar haqqında bunu söyləmək qeyri-mümkündür.**





Yeni qanunda əksini tapmış kriteriyalara cavab verməyən, şərtlərə əməl etmək imkanlarına malik olmayan siyasi qurumlar da az deyil. O səbəbdən bəzi partiyaların bundan sonra fəaliyyət göstərib-göstərməyəcəyi, bir sıra partiyaların isə birləşəcəyi müzakirə mövzusudur. Xatırladaq ki, qanun layihəsi qəbul olunmazdan öncə dəfələrlə ictimai müzakirə keçirildi və siyasi partiyaların bəzi təklifləri nəzərə alındı. Lakin partiyalar üçün problem yaradacaq məqamlar qaldı. Onlardan biri də qanunun tələbinə uyğun olaraq müəyyən olunmuş vaxtadək 5 min üzvün imzasını və məlumatlarını reyestrə təqdim etməkdir. Qanunun tələblərinə riayət etməyən partiyaların məhkəmə vasitəsilə fəaliyyətinin dayandırılması, ləğvi barədə yeni qanunda müddəa var. Partiyaların yenidən qeydiyyatı üçün ən azı 5 min üzvün tələb olunması kiçik təşkilatların taleyini sual altında qoyur.

**Klassik Xalq Cəbhəsi Partiyasının sədr müavini Xəzər Teyyublu "Şərq"ə açıqlamasında deyib ki, uzun müddət siyasətdə olanlar hansı partiyada durumun necə olmasından xəbərdardır. KXCP rəsmisi vurğulayıb ki, bəzi partiyalar mövcud qanunun tələblərini yerinə yetirmək gücündə deyil:** "5 min üzvun toplanması asan məsələ deyil. Dövlət qeydiyyatından keçən, fəaliyyət göstərən partiyalar belə tələb olunan normativləri icra etməkdə çətinlik yaşayırlar. Bu da əsasən mövcud siyasi vəziyyətlə əlaqədardır. İnsanlarımızda siyasətə, siyasi qurumlara maraq çox azdır. Vətəndaşlar bu və ya digər səbəblərdən partiyalara üzv olmaq istəmirlər. Cəmiyyətimizdə siyasi aktivlik olmadığı üçün partiyalarda üzvlüklə bağlı böhran yaşanır. Buna rəğmən, düşünürəm ki, kifayət qədər partiya qanunun tələblərini yerinə yetirəcək və tələb olunan üzvlərin məlumatlarını reyestrə təqdim edəcək. Sadəcə məsələ ondadır ki, 5 min üzv barədə təməl bilgilərin toplanması əlavə vaxt və ciddi çalışma tələb edir. Nəzərə alaq ki, partiyalar dövlət qurumu deyil, onların əllərində hakimiyyət resursları yoxdur. Ona görə də qısa müddətdə nəticə əldə etmək imkansızdır. Hər siyasi qurumun rəhbərliyi öz imkanlarını, resurslarını hamıdan yaxşı bilir. Əgər bəri başdan yetərli üzvə sahib olmaq imkanlarının olmadığı qənaətinə gəlirlərsə, partiyanın buraxılması haqqında qərar verirlər. Görünür, bir neçə siyasi partiya fəaliyyətini dayandıracaq. Ən optimal yol o idi ki, partiyaların hamısına seçkidə iştirak imkanı yaradılardı və barajı keçə bilməyənlər avtomatik ləğv olunmuş sayılardı".

**Azərbaycan Demokrat Partiyasının sədr müavini Həsrət Rüstəmov isə "Şərq"ə bildirib ki, qanuna edilən mürəkkəb dəyişiklikləri obyektiv zərurət diktə etmirdi. Partiya təmsilçisi hesab edir ki, bir çox əlavə və dəyişikliklər siyasi partiyaların fəaliyyətini məhdudlaşdırmağa, nəzarət altına almağa yönəlib:** "Təəssüf ki, qanunun qəbulunda ictimai müzakirələrdə səslənən fikirlər tam nəzərə alınmadı. Artıq qanun qəbul olunub və biz fəaliyyətimizi ona uyğun qurmağa məcburuq. ADP-də imza ilə əlaqədar iş başlayıb. Partiya sədrinin müavinləri Taliyyət Əliyev və Nizami Məmmədzadə bu işə bilavasitə rəhbərlik edirlər. Hesab edirəm ki, qeyri-qanuni maneələr yaradılmasa, nəzərdə tutulan vaxtda proses uğurla yekunlaşacaq".

**İsmayıl Qocayev**

# İranın təxribatları artmaqdadır

## Azərbaycanın hüquq-mühafizə orqanları ayıq-sayıq olmalıdır



**Bir neçə gün əvvəl İrana məxsus hərbi təyyarənin Azərbaycan-İran dövlət sərhədi boyunca irəli-geri uçuş həyata keçirməsi ölkə ictimaiyyətində kəskin reaksiya doğurub. Bununla bağlı İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi Xarici İşlər Nazirliyinə çağırılıb və ona müvafiq etiraz notası təqdim olunub.**

Lakin bu addım Tehran hökumətinin "xoşuna gəlməyib". İran XİN sözçüsü Nasir Kənani deyib ki, İranın hərbi təyyarəsi respublika ərazisində olub, uçuş Azərbaycan sərhədindən lazımi məsafədə həyata keçirilib. XİN rəsmisinin sözlərinə görə, rəsmi Tehran Bakının bu addımını xoş niyyət hesab edə bilməz. Kənani qeyd edib ki, müəyyən edilmiş qaydalara əsasən, bu cür məsələləri ixtisaslaşmış strukturlar həll edir, lakin Bakı bunu etməyib: "Azərbaycan hökumətinin səfiri çağırmasını xoşniyyətli hərəkət kimi qiymətləndirə bilmərik. Tehran Bakı ilə konstruktiv qarşılıqlı fəaliyyətə ümid edir. Biz bu kimi məsələlərin həllini gözləyirik. Mübahisəli məsələlərin mətbuatda və tribunalardan səsləndirilməsi onların həllinə kömək etmir və xoşməramlılıq əlaməti deyil". İran xarici işlər nazirinin sözçüsü anlamalıdır ki, Azərbaycan "xoş niyyətli olmayan" münasibət sərgiləsəydi, mütləq qırıcılarını havaya qaldırardı. Çünki İran təyyarəsi nəinki sərhədimizə təhlükəli səviyyədə yaxınlaşıb, hətta tam sərhədimizin üstü ilə uçub, həm də çox uzun müddət, 42 dəqiqə. Azərbaycanın iranlı səfiri çağırması, ondan izahat tələb etməsi birbaşa xoş niyyətin sübutudur. Əks halda BMT-yə müraciət edər, İranın bu təcavüzkar cəhdinin beynəlxalq miqyasda müzakirəsini qaldırar, əlavə tədbirlərin görülməsi üçün addımlar atılmasına nail olardı.

ABŞ Dövlət Departamenti də İrana məxsus hərbi təyyarənin Azərbaycan-İran dövlət sərhədi boyunca uçuş həyata keçirməsinə münasibət bildirib. Qurumun mətbuat xidmətinin rəhbəri Ned Prays deyib ki, İran uzun müddətdir regionda pisniyyətli oyunçu olub: "İran həm yaxın, həm də uzaq qonşularını təhdid edən zərərli işlərlə məşğul olur. Ona görə də bu tip gərginlikləri narahatlıqla izləyirik. Bizim yanaşmamız Cənubi Qafqazda Azərbaycanla, Ermənistanla əlaqələrimizə sərmayə qoymaqdan ibarətdir ki, daha sabit, münaqişəyə və gərginliyə daha az meyilli regiona nail olaq".

**Millət vəkili Ceyhun Məmmədov bildirib ki, İranın ölkəmizə qarşı təxribatları artmaqdadır. Deputatın sözlərinə görə, bir neçə gün bundan əvvəl Gəncənin "İran şəhəri", Nizami Gəncəvinin "fars şairi" olması ilə bağlı İran rəsmilərinin iddiaları Tehranın mövqeyini ortaya qoyur:** "Azərbaycanla sərhəddə İran təyyarəsinin uçması, sərhədimizi pozması bu fikri bir daha təsdiq edir. Əvvəl də qeyd etdiyim kimi, bir müddət İranın təxribatları müxtəlif formalarda davam edəcək. İranın Azərbaycanla bağlı müxtəlif plan və məqsədlərinin olması hamımıza məlumdur. Münasibətlər gərginləşməzdən əvvəl də İranın rəsmi dairələri Azərbaycanla bağlı fikirlərini açıq bildirirdilər. Onların yanaşması belədir ki, "tarixdə Azərbaycan adında dövlət olmayıb və nə vaxtsa Azərbaycan yenidən İranın nəzarətinə keçəcək". Bu gün bütün təbliğat bunun üzərində qurulub. Hətta bu təbliğat o qədər güclü aparılıb ki, sənəddə azərbaycanlı olan, ancaq düşüncəsi irançılıq ideologiyası ilə zəhərlənən bəzi Azərbaycan vətəndaşları da bu zərərli fikrə dərindən inanıb. Hətta onların düşüncəsinə görə "çox az qalıb, yaxın vaxtlarda Azərbaycanda "Kərimə Dövləti" qurulacaq". Səbəblərdən biri də Azərbaycanın müstəqil siyasət aparmasıdır. İran öz aləmində özünü "bölgənin ağası" hesab edir. Düşünür ki, nə qədər absurd səslənsə də, bölgədə atılan hər bir addım onunla razılaşdırılmalıdır. Bu baxımdan Azərbaycanın İranın Ermənistanla sıx əməkdaşlığına qəti etirazı İran tərəfində ciddi qıcıq yaradır. Onlar Azərbaycanın bu etirazlarını həzm edə bilmirlər".

**Parlament üzvünün sözlərinə görə, İranın Azərbaycanda istədiyi digər məsələ İsraillə əməkdaşlığa son qoyulmasıdır:** "İran İsrail məsələsi ilə həm İrandakı, həm də Azərbaycandakı təbliğatında ciddi manipulyasiya edir. Davamlı olaraq belə fikir yayır ki, guya, İsrailin Azərbaycanda hərbi bazaları var və bu bazalar İran üçün ciddi təhdidlər yaradır. Əslində burada əsas məqsəd heç bir dövlətin əleyhinə yönəlməyən Azərbaycan-İsrail əlaqələrinin inkişafının qarşısını almaqdır. Azərbaycan dəfələrlə açıq şəkildə bildirib ki, heç bir dövlətə onun ərazisindən İrana qarşı istifadə edilməsinə imkan verməyəcək. İranın məqsədi başqa olduğu üçün Azərbaycanın bu açıqlamalarını qəbul etmir. İsrail-Azərbaycan əlaqələrinə gəldikdə bu əlaqələr yuxarıda qeyd olunduğu kimi heç bir dövlətin əleyhinə yönəlməyib. Bu gün Azərbaycanın istənilən dövlətlə beynəlxalq hüquqa əsasən əlaqə və münasibət qurmaq hüququ var. İranın əsassız arqumentlərinə və məntiqsiz paralellərinə gəldikdə isə bir daha bəyan edirik ki, Ermənistandan fərqli olaraq İsrail İranın torpaqlarını işğal etməyib. Azərbaycan İrandan fərqli olaraq İsraillə İran əleyhinə birləşməyib. Ancaq bu gün İran Ermənistanla Azərbaycan əleyhinə birləşib, ona hər cür dəstək, hətta silah belə verir. Bu məsələyə dair yüzlərlə fakt saya bilərik. Əgər İran düşünürsə ki, bu yalan təbliğat və təzyiqlərlə Azərbaycanın mövqeyini dəyişəcək və özünə tam tabe etdirəcək, yanılır. Burada yanaşmasını və mövqeyini dəyişəcək bir ölkə varsa, o da İrandır. İran müstəmləkə təfəkkürünə, digər ölkələrə yuxarıdan aşağı və xor baxmağa son qoymalıdır. Bunu etməyənə kimi münasibətlərin normallaşmasını gözləməyə dəyməz. İran tərəf bunu mütləq anlamalıdır. İndi Azərbaycan güclü dövlətdir. Eyni zamanda Azərbaycanın hüquq-mühafizə orqanları həddən artıq ayıq-sayaq olmalı, operativ privintiv tədbirlər həyata keçirməli, dini fəaliyyət sahəsində islahatlar sürətləndirilməlidir. Çünki qarşı tərəf davamlı olaraq çevik və situativ addımlar ataraq əməliyyat şəraitini öz xeyrinə dəyişməyə çalışır və bəzi hallarda buna nail ola bilir. Odur ki, çox diqqətli olmalıyıq".

**İsmayıl Qocayev**

# Alman şirkətlərinin Azərbaycanla əməkdaşlıq imkanları genişlənir

## Yaxın zamanlarda biz bunun məntiqi nəticəsini görəcəyik



**Martın 13-də Azərbaycan Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına işgüzar səfər edib. Berlində Prezident İlham Əliyevin Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşü olub. Dövlətimizin başçısı görüşdə çıxış edib.**

Görüşdə iqtisadi sahədə, o cümlədən sənaye, nəqliyyat, enerji, kənd təsərrüfatı, təhsil, texnologiyalar və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

**Səfəri "Şərq"ə dəyərləndirən "Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov söyləyib ki, son dövrlərdə Azərbaycanın Avropa ölkələri ilə əlaqələri xeyli dərəcədə inkişaf edib:** "Burada təkcə qaz faktoru yox, eyni zamanda yaşıl enerji məsələsi də gündəmdədir. Buna paralel olaraq ölkəmizin həm də Şərq-Qərb nəqliyyat dəhlizi üzərində yerləşməsi, onun Avropa üçün daha da cəlbedici olmasına gətirib çıxarır. Həmçinin Azərbaycan İtaliya, Yunanıstan, Macarıstan və s. kimi ölkələrlə yanaşı, Almaniya ilə də əlaqələrin inkişaf etdirilməsinin tərəfdarıdır. Biz nəzərə almalıyıq ki, Azərbaycanın Avropada milyard manatla ölçülən ticarət dövriyyəsinin olduğu ölkələrdən biri də Almaniyadır. Bu o deməkdir ki, yaxın perspektivdə sözügedən ticarət dövriyyəsinin daha da artırılması mümkündür. Həmçinin Cənab Prezident Münhen Konfransında iştirak etdiyi zaman da, almaniyalı iş adamları və Şərqi Almaniya Assosasiyasının rəhbərliyi ilə görüşlər keçirdi. Bunların hamısı alman şirkətlərinin Azərbaycana maraq göstərməsindən irəli gəlir".

*Analitikin sözlərinə görə, ölkəmiz artıq alternativ və bərpa edilən enerji sahəsində addımları daha da möhkəmləndirməyə çalışır:* "Bu da gələcəkdə Almaniya ilə bu sahədə əməkdaşlığın inkişaf etdirilməsinə imkan yaradır. Düşünürəm ki, 2023, 2024 və 2025- ci illər ərzində bu görüşlərin nəticəsində alman şirkətlərinin Azərbaycanla əməkdaşlıq imkanları genişlənir. Yaxın zamanlarda biz bunun məntiqi nəticəsini görəcəyik. İndiki halda isə səfər danışıqları əhatə edir. Düzdür, Azərbaycanın Almaniya ilə ticarət dövriyyəsi 1 milyard manatdan çoxdur. Lakin səfərlə daha ciddi investisiyaların qoyulması üçün zəmin hazırlanır".

**Nihat Müzəffər**

# Qaradağda bina əyilib

## Tikilinin təməlinə su sızır, hər an təhlükə yaşana bilər




***"Bina təzə tikilibsə, onu texnologiya ilə düzəltmək olur. Amma qəzalı binalar mütləq şəkildə yenilənməlidir"***

**Qaradağ rayonu "Qobu Park-2" yaşayış kompleksində 16 saylı binanın sakinləri təhlükə ilə üzüzədirlər.**

"Şərq" "Oxu.Az"a istinadən xəbər verir ki, bu barədə həmin binanın sakinləri məlumat veriblər.

Bildirilib ki, binanın təməlinə su sızır, hər an təhlükə yaşana bilər: "Bu hal daha öncə digər binalarda da yaşanıb. Qrunt suları özülə axır. Zəlzələ olsa, bina yerlə bir olacaq".

Sakinlərin sözlərinə görə, binanın özülünə hazırda beton tökülür:

"Hazırda binanın özülünə beton tökülür. Guya təhlükəsizliyin qarşısını almağa çalışırlar. Əyilmiş binaya beton tökülməsi nə dərəcədə doğrudur?

Məsələ ilə bağlı "Kristal Abşeron"un iş icraçısı Eldar Məmmədov bildirib ki, sözügedən binada həyat əhəmiyyətli təhlükə yoxdur.

O qeyd edib ki, sakinlərin narahatlığına səbəb olan bir problem yoxdur və onlar rahat şəkildə yaşaya bilərlər: "Problem binanın altından keçən su xətləri ilə əlaqədi idi. Həmin xətlər artıq uzaqlaşdırılıb".

**Hadisəyə münasibət bildirən memar Faiq İsmayılov "Şərq"ə bildirib ki, yəqin, binada hansı işlərin aparılmalı olduğunu rəhbərlik özü bilir:**

"Məsələ burasındadır ki, texnologiya ilə əyilən binaları düzəltmək mümkündür. Yəni onun sökülməsinə ehtiyac qalmır. Bu baxımdan mütəxəssislər problemlə bağlı fikir yürüdüb, onu aradan qaldıracaqlar.

Ümumiyyətlə, Azərbaycanda bundan öncə də əyilən binalar olub və düzəldilib. Orda hansısa bədbəxt hadisənin baş verməsi və ya təbii fəlakət zamanı uçması, tikilinin keyfiyyətindən asılıdır. Bunun nə mərtəbəyə, nə də böyük-kiçik olmasına aidiyyəti var. Digər tərəfdən, qəzalı vəziyyətdə olan və ya müddətini başa vurmuş binalar bərpa edilə bilməz.

Onlar sökülüb yenidən tikilməlidir. Yəni bina təzə tikilibsə, onu indiki texnologiya ilə düzəltmək olur. Amma qəzalı binalar mütləq şəkildə yenilənməlidir".

**Nihat Müzəffər**

# Korluq yaradır

## Qlaukoma xəstəliyi nəzarətsiz qalanda çox ciddi problemlərə səbəb olur



**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti İmran Cərullazadə nazirliyin sosial media hesablarına qlaukoma ilə bağlı gələn sualları cavablandırıb.**

Onun sözlərinə görə, qlaukoma xəstəliyin erkən mərhələdə aşkar edilməsi üçün ildə bir dəfə profilaktik oftalmoloji müayinədən keçmək tövsiyə olunur: "El arasında "Qara su" kimi tanınan qlaukoma xəstəliyi oftalmologiyada ən təhlükəli göz xəstəliklərdən biri hesab olunur. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, qlaukoma kataraktadan sonra korluğa səbəb olan xəstəliklər arasında ikinci yerdədir. Səbəb isə odur ki, qlaukoma erkən mərhələlərdə asimptomatik keçir. Buna görə də onun nəzarətsiz gedişi görmə qabiliyyətinin geri dönməz itkisinə səbəb olur. Qlaukomanın inkişaf riski 40 yaşdan yuxarı insanlarda olur. Lakin bu xəstəlik gənclərdə və hətta körpələrdə (anadangəlmə qlaukoma) baş verə bilər".

Ekspertin sözlərinə görə, qlaukoma görmə sinirinin və tor qişanın zədələnməsinə səbəb olur. Bu, göz içi təzyiqinin fərdi normadan artıq olması səbəbindən baş verir və zaman keçdikcə optik sinirin atrofiyasına gətirib çıxara bilər: "Qlaukoma, əsasən, iki qrupa bölünür: Açıq bucaqlı qlaukoma və qapalı bucaqlı qlaukoma.

Açıq bucaqlı qlaukoma - bu, demək olar ki, xəstəliyin nisbətən az çox rast gəlinən formasıdır. Əksər hallarda açıq bucaqlı qlaukoma asimmetrik olaraq baş verir və hər iki gözə təsir edir. Patologiyanın bu növü kor ləkənin, sinir liflərinin və görmə sahəsinin struktur və funksional defektinə səbəb olur.

Qapalı bucaqlı qlaukoma - xəstəliyin nisbətən az rast gəlinən formasıdır. Bu formada gözdaxili təzyiq sürətlə artmağa başlayır. Qapalı bucaqlı qlaukomada bəbəyin genişlənməsinə səbəb olan istənilən vasitə, məsələn, işıq, müəyyən dərmanlar, hətta gözləri müayinə etmək üçün istifadə edilən bəbəkgenişləndirici damcılar qüzeyli qişanın gözdaxili maye axarlarının bloklamasına səbəb olur. Bu zaman göz alması qısa zamanda sərtləşir - təzyiq qəfildən ağrı və görmənin dumanlanmasına gətirib çıxarır. Qapalı bucaqlı qlaukomanın kəskin tutması zamanı şiddətli baş ağrısı, ürəkbulanma, qusma və sinə ağrısı kimi simptomlar müşahidə oluna bilər".

Qeyd edək ki, dünyada 63 milyondan çox insan qlaukomadan əziyyət çəkir. Demək olar ki, hər beş qlaukomalı xəstədən biri görmə qabiliyyətini tamamilə itirir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünyada 4.5 milyon insan qlaukoma səbəbiylə görməsini itirir. Avropa Qlaukoma Cəmiyyəti hər kəsə 40 yaşdan sonra ildə bir dəfə gözdaxili təzyiqini ölçdürməyi, nəslində qlaukoma xəstəliyi olan insanlara 35 yaşdan sonra ildə ən azı bir dəfə gözdaxili təzyiqlərini yoxlatdırmağı tövsiyə edir. Hazırda Azərbaycanda 22 mindən çox qlaukomalı xəstə dispanser qeydiyyatındadır.

**Oftalmoloq-cərrah Rəfadar Xəlilovun sözlərinə görə, gözdaxili təzyiqin yüksəlməsi qlaukomanın əsas əlamətidir. Göz almacığında olan maye gözün qidalanması üçün olduqca əhəmiyyətlidir:** "Həmin maye müntəzəm olaraq xaric olunur. Onun rahat ifraz oluna bilməməsi isə "qlaukoma"adlanır. Əvvəllər qlaukomanın niyə məhz "qara su" adlandırılması məni çox düşündürürdü. Elmi bir əsası da yoxdur bu adın. Amma sonra düşündüm ki, qlaukoma xəstəliyi nəzarətsiz qalanda çox ciddi problemlərə səbəb olur. Bir sözlə, korluq yaradan bu xəstəlik adamı qara günə qoyur. Mirvari suyu olanda bəllidir ki, gözün rəngində bozlaşma olur, yəni bəbəyin arxasında bozumtul bir rəng görünür. Ona görə də mirvari suyu deyirlər. Qlaukomalı pasiyentlərdə gözdaxili mayenin sorulmasını təmin edən trabekulyar şəbəkənin daralması və ya tıxanması nəticəsində gözdaxili təzyiq yüksəlir. Qlaukoma adətən, 50 yaşın üstündəki insanlarda daha çox rast gəlinir. Amma bu növlərinə görə dəyişə bilir. Bəzən anadangəlmə qlaukoma olur. Bəzən həyatın ilk illərində, 2-3 yaşında, bəzən 7-8 yaşında görülür. Gənc (yuvenil) qlaukoma da var. Ona görə tövsiyəmiz, əgər irsiyyətdə qlaukoma varsa, mütləq o nəsilin nümayəndələri 40 yaşından sonra ildə 2 dəfə gözdaxili təzyiq baxımından həkim müayinəsindən keçməlidirlər. Müayinə ilə qlaukoma aşkarladığımız pasiyentlərin 90 faizində 1-ci və ya 2-ci dərəcəli qohumlarında bu xəstəliyə rast gəlinir. Qlaukomaya uşaqlarda, hətta körpələrdə də rast gəlinir. Valideynlər bu xəstəliyi əsasən gözün həcmindəki dəyişikliklə müşahidə edə bilirlər. Çünki uşaqlarda göz almasının toxumaları çox sərt deyil, elastikdir. Buna görə gözün içində təzyiq çoxaldıqca, göz alması böyüyür. Adətən, 2-3 aylıq uşaqlarda artıq bu problem görülür. Müalicəsi öncə konservativ edilir. Dərmanla, adətən, nəticə əldə olunur. Əks təqdirdə, cərrahi əməliyyata müraciət olunur".

R.Xəlilovun sözlərinə görə, qlaukoma xəstəliyi inkişafın ilk mərhələlərində özünü büruzə vermir. Göz damarlarında torun əmələ gəlməsi, görmədə dumanlıq, uzaq və yaxın məsafəyə fokuslanma, gözlərdə yorğunluq dərəcəsinin artması kimi əlamətlərə qədər qlaukoma gizli gedişata malik olur.

**Şəymən**

# İndi çox adamda əvvəlki həvəs qalmayıb

## Jalə Həsənli: "Amma uşaqlara bu bayram sevincini çox görməyək"




**İlaxır çərşənbədə həmkarımız Jalə Həsənlinin sosial şəbəkədəki paylaşımı diqqətimizi çəkdi. Xalqımıza ilk qələbə xəbərini İTV efirindən göz yaşlarıyla çatdıran Jalə xanımın səmimi, içdən gələn bayram təbrikini oxucularımızla bölüşmək qərarına gəldik:**

- Torpaq yurddur, torpaq müqəddəsdir, torpaq uğrunda can verən oğulların uyuduğu Vətəndir! Torpaq qoynuna əmanət etdiyim anamdır, atamdır Torpaq qədrini bildiyin zaman ruzidir, bərəkətdir. Novruz bayramının özündən də çox sevdiyim, sehirli çərşənbəm olub İlaxır çərşənbə. Həvəslə axşamın düşməyini gözləyər, məhəllə dostlarımızla qonşularımıza papaq atar, qapı pusar, su falına çıxardıq. Axşamüstü, təxminən saat 5-6 arası bütün bloku plov ətri bürüyərdi. Hamının evindən o ətir gəlsin deyə, hər kəs imkansıza əl tutardı. Üzərinə dostumuzun adını naxış vurduğumuz şəkərburaları dostlarımıza hədiyyə edərdik. Məhəllələr arasında rəqabət tonqalın hündürlüyünə görə olardı. Bizim məhəllə ən sonda ocağını qalayar və ətrafına hər kəsi toplayardı. Mahnılar səsləndirilər, gənclər gözəl rəqslər edərdi. Onda bayramlar gözəl keçərdi. Uşaq idik. Heç nəyin fərqində deyildik. Tək dərdimiz uşaqlara qoşulub, daha çox əylənmək idi. O vaxt Məmmədbağır Bağırzadə "Süfrələrə şam düzün, qoy arzular çin olsun" deyərdi. Biz də həvəslə xonçaya ev sakinlərinin sayına uyğun şam düzərdik. Belə bir inanc da var idi ki, kimin şamı daha gec sönsə, o daha uzunömürlü olacaq. Anamın şamının daha gec sönməsi üçün dua edərdim... İndi bayram həvəsi qalıbmı? Şəhərə baxanda görürsən ki, çox adamda əvvəlki həvəs qalmayıb. Amma uşaqlara bu bayram sevincini çox görməyək. Onlar gülsün, onlar əylənsin. İcazə verək, onların da gələcəkdə danışa biləcəyi xatirələri formalaşssın

**Məlahət**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi;

**Azərbaycan mediasının inkişafı, azad söz, fikir, plüralizmin təmin edilməsi dövlətin hər zaman xüsusi diqqət və qayğı ilə yanaşdığı məsələlərdəndir. Lakin ölkəmizin qazandığı uğurlar heç də hər kəs tərəfindən birmənalı qarşılanmır. Başqa sözlə, beynəlxalq arenada əldə edilən nailiyyətləri həzm edə bilməyənlər kifayət qədərdir. Azərbaycanın uğurlarına qərəzli, qeyri-obyektiv mövqeyi ilə tanınan təşkilatlardan biri də "Freedom House"dir. Təşkilat 2022-ci il üçün dünyada insan haqları və medianın durumu haqqında yaydığı hesabatda Azərbaycanda medianın vəziyyəti ilə bağlı reallıqdan uzaq, qərəzli münasibətini bir daha nümayiş etdirib. Heç bir fakta söykənməyən, əsassız, reallıqdan uzaq olan fikirlər ictimaiyyət nümayəndələrinin də haqlı narazılığına səbəb olub. Ekspertlərə görə, "Freedom House"nin belə davranışı ilk deyil. Ümumiyyətlə, bütün mövcudluğu dövründə bu qurum faktiki olaraq anti-Azərbaycan mövqeyindən çıxış edib.**

# "Freedom House" ictimai etimadı itirib

## Təşkilat "insan haqlarının müdafiəçisi" adını, sadəcə manipulyasiya edir




Azərbaycan həqiqətlərini təhrif edən "Freedom House" təşkilatının son hesabatı ilə bağlı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi də bəyanat yayıb. Bəyanatda qeyd olunub ki, "Freedom House" beynəlxalq qeyri-hökumət təşkilatı açıqladığı son hesabatında Azərbaycanda medianın vəziyyəti ilə bağlı reallıqdan uzaq, qərəzli münasibətini bir daha nümayiş etdirib. Əsassız ittihamlara cavab olaraq vurğulanıb ki, "Media haqqında" Azərbaycan Respublikasının Qanununda hesabatda iddia olunduğu kimi xarici onlayn platformalara yerli hüquqi şəxs kimi qeydiyyatdan keçmək öhdəliyi qoyulmayıb: "Belə ki, Qanunun müddəalarına əsasən, Azərbaycan Respublikasında xarici media subyektlərinin filial və nümayəndəliklərinin açılması Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir və bunun üçün həmin subyektlərin yerli hüquqi şəxs kimi qeydiyyatdan keçməsi heç bir halda tələb olunmur. Xüsusilə vurğulanmalıdır ki, Qanunun müddəaları videopaylaşım platformaları, internet televiziyaları və bu kateqoriyadan olan digər fəaliyyət növlərinə qətiyyən şamil edilmir, heç bir halda onların fəaliyyətini tənzimləməyi nəzərdə tutmur. Beynəlxalq yanaşma nəzərə alınmaqla, media sahəsində baş verən qanunazidd hallara məhkəmə tərəfindən hüquqi qiymət verilməsi nəzərdə tutulub, dövlət orqanlarının bu istiqamətdəki səlahiyyətləri tamamilə məhdudlaşdırılıb. Heç bir dövlət orqanının media subyektlərinin fəaliyyətini dayandırmaq və ya onların fəaliyyətinə xitam vermək, yaxud hər hansı şəkildə müdaxilə etmək hüququ yoxdur. Bu sahədə yarana biləcək bütün hüququazidd hallar məhkəmələrdə tərəflərin bərabərliyi prinsipi əsas götürülməklə həll edilir". Bəyan edilib ki, qanun "media sahəsində dövlət senzurası, habelə bu məqsədlə dövlət orqanlarının (qurumlarının) və ya vəzifələrin yaradılması və maliyyələşdirilməsi qadağandır" deməklə senzuranı tamamilə istisna edir. Əlavə olaraq, media sahəsində fikir müxtəlifliyi və fəaliyyət azadlığının təmin edilməsini dövlətin vəzifəsi olaraq müəyyənləşdirir: "Həmçinin qanun jurnalistlərin ictimaiyyəti məlumatlandırmaq sərbəstliyini təmin etmək məqsədilə informasiyanın əlçatanlığının və operativliyinin təmin edilməsi üçün dövlət orqanları üzərinə media nümayəndələrinə hər hansı fakt və ya hadisə barədə ətraflı məlumat vermək öhdəliyi qoyur, jurnalistlərin peşəkar fəaliyyətinə müdaxiləni yolverilməz hesab edir. Azərbaycan həqiqətlərini təhrif etməyə davam edən, münasibət bildirərkən rəsmi mənbələrlə əlaqə saxlamayan, dəfələrlə bəyan edilmiş dialoq təşəbbüslərimizi cavablandırmayan və nəhayət, öz ərazi bütövlüyünü bərpa edən ölkəni "işğalçı" adlandıran təşkilatın hesabatı hüquqi və məntiqi baxımdan tamamilə əsassız və etibarsız olmaqla yanaşı, beynəlxalq hüququn norma və prinsiplərinə də ziddir.

**Mətbuat Şurasının İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli "Şərq"ə bildirib ki, "Freedom House" ictimai etimadı itirmiş təşkilatdır. Ekspertin sözlərinə görə, "Freedom House"nin fəaliyyət tarixi saxtakarlıqlarla zəngindir. Özünü hüquq müdafiə, insan haqları təşkilatı elan edib. Amma həmişə ABŞ siyasi çevrələrinin əlində alət rolunda çıxış edib:** "Son 20 ilin təcrübəsi göstərir ki, təşkilat ABŞ-nin maraqları ilə uzlaşan qeyri-demokratik, avtoritar rejimləri müdafiə edir. Maraqlarına əks mövqedə olanları isə "avtoritar" damğası ilə yarğılayıb hədəfə çevirir. ABŞ hədəf seçdiyi ölkələri öncə "Freedom House" qismində təşkilatların "bəyanatları", "hesabatları" ilə vurur. "Freedom House" 1941-ci ildə ABŞ-də siyasi xadimlər tərəfindən təsis edilib. Təşkilatın ilk lideri rolunda ABŞ prezidentinin xanımı Eleanor Ruzvelt çıxış edib. 1940-cı il seçkilərində prezident Ruzeveltə alternativ olmuş Respublikaçılar Partiyasının namizədi Vendell Villki də "Freedom House"nin yaradılmasında iştirak edib. O, təşkilatın qurucuları sırasında yer tutub və həmsədrlərindən biri olub. ABŞ-nin iki əsas siyasi partiyasının funksionerlərini öz sıralarında birləşdirən "Freedom House" yaranışdan bəri siyasi təşkilatdır və ABŞ-nin xarici siyasətinin icraçılarından biridir. Təşkilat "insan haqlarının müdafiəçisi" adını, sadəcə manipulyasiya edir. "Freedom House" öz saytında göstərir ki, fəaliyyəti siyasi maraqlardan kənardır, xalqların təhlükəsiz, demokratik mühitdə yanşmasına töhfə vermək üçün çalışır. Amma təşkilatın ABŞ auditoriyasına münasibətdə rəhbər tutduğu bu prinsip ABŞ sərhədlərindən kənarda heç də həmişə qorunmur. "Freedom House"nin ayrı-ayrı ölkələrə yanaşmasında tendensiya, siyasi konyuktura özünü göstərir. Bəzi ölkələri olmayan faktlara görə hədəf alır, bəzilərində isə pozuntulara şüurlu şəkildə göz yumur".

**M.Ələsgərli bəyan edib ki, son 2 ilin hadisələri onu göstərir ki, "Freedom House"ABŞ siyasi çevrələrində də öz nüfuzunu, etimadını itirərək ayrı-ayrı qrupların əlində alətə çevrilib:** "Bircə nümunə verməklə, bu faktı isbat etmək mümkündür. 2021-ci ilin dekabr ayında ABŞ-də "Demokratiya sammiti" keçirildi. "Karnegi Fondu" ABŞ Prezidenti Cozef Baydenin təşəbbüsü ilə keçirilən virtual "demokratiya sammiti"ni təhlil edəndə belə bir faktı aşkarlamışdı ki, tədbirə dəvət alanlar sırasında qeyri-demokratik ölkələrin liderləri də yer tuturlar. Fond tərəfindən hazırlanan və "Baydenin demokratiya sammitində kimlər var?" başlığı ilə təqdim edilən analitik məqalədə bildirilirdi ki, sammitə dəvət alan ölkələrdən 3-ü "Freedom House" təşkilatının 2021-ci il hesabatında "azad olmayan" (qeyri-demokratik) ölkələr kimi təsnif edilib. Yəni artıq ABŞ-nin özündə belə demokratiya barədə danışılarkən, "demokratlar siyahısı hazırlayan" "Freedom House"yə istinad edilmir. Təşkilat o qədər saxtakarlıq edib ki, onu təsis edənlərin də gözündən düşüb. Bu baxımdan, təşkilat indi ayrı-ayrı lobbi qruplarının təsirində fəaliyyət göstərir. Erməni şəbəkəsinin təsiri də bariz görünür. Onun son hesabatının Azərbaycanla bağlı bölümünü, sanki Ermənistanda yazıb göndəriblər. Heç bir reallığı əks etdirmir. Hətta Azərbaycanın ərazi bütövlüyünü şübhəyə alır, Qarabağı öz xəritəsində fərqli rənglərlə göstərir. Bu baxımdan "Freedom House"ni ciddi təşkilat kimi qeydə almağa zərurət qalmır".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Ədəbiyyatımızın Anar dövrü...

## Qocaman yazıçının 85 illik yubiley gündəliyində tərif də, tənqid də var

**Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Rzayevin 85 yaşı tamam olub. Yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında yeni bir səhifə açan Anar 1938-ci ildə martın 14-də iki məşhur yazıçı Rəsul Rza və Nigar Rəfibəylinin ailəsində dünyaya gəlib. Elə yazıçının adı da ona doğma olan iki insandan bir xatirədir.**

Anar yaradıcılıq fəaliyyətinə yeniyetməlik yaşlarından başlayıb. 1960-cı ildə "Azərbaycan" jurnalının dekabr nömrəsində çap olunmuş "Keçən ilin son gecəsi" və "Bayram həsrətində" ilk mətbu hekayələridir.

Onun müxtəlif ölkələrdə nəşr olunan kitablarının ümumi sayı 50-dən artıqdır.

"Ağ liman", "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Əlaqə", "Dantenin yubileyi", "Dədə Qorqud" əsərləri müxtəlif dillərdə çap olunub.

Azərbaycanın bütün teatrlarında Anarın pyesləri tamaşaya qoyulub. Rusiyanın "Mosfilm" kinostudiyasında "Mən, sən, o və telefon" hekayəsinin motivləri üzrə "Hər axşam 11-də" bədii filmi çəkilib.

Anar 11 bədii filmin ssenari müəllifidir. "Dantenin yubileyi" filminin habelə iki hissəli "Üzeyir ömrü", və "Qəm pəncərəsi" filmlərinin quruluşçu rejissoru Anar özüdür.

85 yaşlı yazıçı ad günü ilə bağlı "Modern.az"a açıqlamasında deyib ki, ad günü ilə bağlı səhər saatlarından təbriklər gəlib, həm sənət dostları, həm oxucular təbrik ediblər: "Məni xeyli adam təbrik edib. Sizə də təbrikiniz və diqqətiniz üçün təşəkkür edirəm".

Yazıçı Anar doğum günündə işdə olacağını, daha sonra ailəsinin əhatəsində 85 yaşını qeyd edəcəyini söyləyib: "Bu gün işdə olacağam, yeni yaşımda Azərbaycan Yazıçılar Birliyinin sədri kimi iş başındayam, fəaliyyətimi birliyin yaxşılaşdırılması üçün davam etdirirəm. Yeni yaş yeni planlar deməkdir. Bizim də gələcəklə bağlı planlarımız var. Yaradıcılıqla məşğulam, bundan sonra da fəaliyyətimi davam etdirəcəm. Doğum günümü isə yalnız ailəmlə birlikdə, onların yanında qeyd edəcəyəm".

AYB sədrindən həmkarı Əkrəm Əylislidən ad günü təbriki alıb-almadığını da soruşduq: "Hələ Əkrəm Əylislidən təbrik mesajı almamışam. Kim təbrik edirsə, ona minnətdarlığımı bildirirəm".

O, 85 yaşının olmasına baxmayaraq, sağlıq durumunun qaydasında olduğunu söyləyib.

*Qeyd edək ki, Anar 1987-ci ildən indiyədək Azərbaycan Yazıçılar Birliyinin sədridir.*

**Anar Rzayevin ad günü ilə bağlı ürək sözlərini "Şərq"lə bölüşən Şair Qulu Ağsəs "Ulduz" jurnalının kollektivi ilə birlikdə Anar müəllimlə görüşüb onu təbrik etdiklərini deyib:** "Elə bu dəqiqə otağından çıxdıq. "Ulduz"un adından onu təbrik edib uzun ömür, can sağlığı arzulayırıq. Ad günü hədiyyəmiz də bir az kreativ idi. Tortun üzərinə Anarın "Ulduz"dakı şəklinin yanında "Əgər adamlar bilsəydi ki, beşmərtəbəli evin altıncı mərtəbəsi də ola bilər, onda nə vardı ki " ifadəsini də yazdırmışıq. Amma bunu bilmək üçün də Anar olmaq, onun kimi düşünmək lazımdır. Anarın nəsrini poeziyaya çevirsək, bu sözlər onun şah misrasıdır.



Azərbaycan mədəniyyətinin, incəsənətinin hər yerində Anarın yaradıcılığından bir parça var. Televizoru açırsan Anarın ssenari müəllifi olduğu filmlər, kitabları açırsan onun publisistikası, estetikası, pyesləri, şeirlərinə rast gəlirik. Hətta deyərdim ki, Anar bütün həyatımızın bir parçasına çevrilib. Arzu edirəm ki, Anar müəllim hələ bundan sonra da uzun illər yaşayıb, yaratsın. Anar ədəbiyyat, mədəniyyət naminə kifayət qədər məsuliyyətli işləri öz üzərinə götürmüş adamdır. Onun hələ yarımçıq qalan çox layihələri var. Onları başa çatdırana qədər yaşamalıdır. Anar kimi adamların missiyası bitmir. O, hazırda yazıçılar üçün nəzərdə tutulan ancaq müəyyən səbəblərdən yarımçıq qalan binanın tikintisinin yenidən davam etdirilməsi üçün çalışır. Anar müəllimin xahişi ilə Şabranda Yazıçıların Yaradıcılıq Mərkəzinin tikintisi də başlayıb. Allah ömür versin, bu layihələrin hər biri başa çatsın və Anar müəllim yazıçılar binasında qonaq olsun. Hamı 100 il ömür arzulayır. Mənsə, 101 il ömür arzulayıram. Bir ilin özü də qənimətdi. Onsuz da Anarın əsərləri ölümsüzdü, hər zaman yaşayacaq. Qoy, özü də əsərləri qədər yaşasın da, nə olar?!".

**Akademik, millət vəkili Rafael Hüseynov isə hesab edir ki, Anar məktəbdir və bu mərtəbəyə də ixtiyarlaşanda, uzun yol keçəndən sonra çatmayıb:** "Peşəkar yaradıcılığa özündən əvvəlki dahilərin yerinə yetirdiyi böyük işləri büsbütün yeni biçimdə davam etdirərək başladığı çağlardan məktəbədönməklik ona xas idi. Çünki ruh o köhnə böyük kişilərinki idi, amma çağdaş, cavan səs və yazı, ifadə tərzi Anarınkı idi. Həm də hər təzə əsəri içərisindən əlavə çölü ilə də, şəkli ilə də bir ülgü idi və qocaman bir tut ağacı hər dəfə yaz yenidən gəlirkən təzədən tumurcuqlayan, yarpaqlar açan, hər növbəti yayda yenə lap köhnə illərdəki şirinlikli bəhrə verən təki, Anar səksənini arxada qoyub doxsanına yaxınlaşdığı bu illərdə yenə həminki cavan Anar kimidir. Düşüncəsi, sözü, qələmi həmin sanbalında, həmin təravətində, həmin siqlətində və onun tükənməz yenilikçiliyi, heyrətli ülgüləryaratma məziyyəti də bütün yolu boyu ona xas olmuş əvvəlki gücündə! Bugünün Anarı da elə cavan Anar qədər hər yazısı ilə, hər çıxışı ilə, hər addımı ilə canayatandır, ürəklərdən xəbər verəndir, yolaçandır, baxaraq, öyrənərək daha neçə-neçə bu cür yenilərini doğurmaqçün qəlibdir. Anar Azərbaycan yaradıcı dühasının bir millətinki və tək yurdunku olmaq çərçivəsindən çıxaraq daha geniş fəzalara qanadlanmaq, bənzənən olmaq, ülgülər vermək kimi müstəsna keyfiyyətinin XX-XXI əsrlərdəki hələ ki son təzahürüdür. Odur ki, "Anar kimdir" sualına cavab axtaranlar, Anarın böyüklük həddi barədə düşünmək istəyənlər və o cümlədən, istəməyənlər söhbətin hansı səviyyədən getdiyini heç vaxt yaddan çıxarmamalıdırlar! Bu, zəka və qələm uçuşlarının elə qatıdır ki, o hündürlüyə təyyarələr qalxa bilmir, yaradıcı fəzanın o layında kosmik raketlər süzür.

Damarlarında bu millətin xalis qanı axan hər kəsin belə mərd, ötkəm, vəfalı, vergili övladla qürur duymaq haqqı, həm də onu daim əziz tutmaq borcu var!

Vətən və milləti Anar kimi övladlar böyük edir və bu gün yalnız Azərbaycanın da deyil, bütün türk dünyasının böyüklük ölçülərindən, barmaqla sayılacaq qədər az meyar şəxsiyyətlərindən olan Anar sağkən abidələşmiş nadirlər zümrəsindəndir".

**Gənc şair Turan Uğur isə sosial media hesabında bəzi qaragüruhçu gənc yazarlardan fərqli olaraq Anarın müəzzəm bir yazıçı olduğunun fərqində olduğunu yazıb.** Onun sözlərinə görə, Anar onları bəyənməyənlərə, məmur tənələrinə görə çıxardıqları ölüm hökmünə də bəraət verən yazıçıdır: "70-ci illərdə yazdığı "Səhra yuxularında", hələ biz doğulmamış bizə və özünə bəraət qazandıra bilib. Anar həm də cəmiyyətdəki naqisliklərə qüvvətli immuniteti ilə seçilən yazıçı kimi də nadidədir. Cəmiyyət naqisliyində, çirkabında əriməmək üçün həm adi suyu, həm yağış suyu olan yazıçıdır Anar. Ustadın doğum günüdür, onu təbrik edir və deyirəm ki:

**Yazdığı hər bir əsər.**
**Aləmə şörət, şanmı?!**
**Turan Uğur, söylə ki,**
**Bəybura, Bəybecanmı**
**Anar Azərbaycanmı?!**

**Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü Emil Rasimoğlu da "Şərq" vasitəsilə 85 yaşlı Xalq yazıçısını yubiley münasibətilə təbrik edib:** "Ancaq məsələ kəmiyyət olaraq nə qədər yaşamaq deyil, necə yaşamaqdır, hansı təsvirdə yadda qalmaqdır. Anar 85 illik ömrün əksər hissəsini ədəbiyyatdan, sənətdən çox öz "maraqları" naminə intriqalara, mübarizələrə, özünü ilahiləşdirməyə həsr edib. İçindəki istedaddan çox bu "ideya"ya sadiq olub. O sadiqlik ki, Anardan diktator yaradıb.

Bu illər ərzində neçə-neçə gənc nəsillə necə deyərlər, üz-üzə, sinə-sinəyə gəldi. Bir addım belə yol vermədi. Gözləri önündə kimlər qürubuna çatmadı ki...

Mən bu yubiley günü yalnız Anara bundan sonrakı ömründə etiraf etmək cəsarəti arzulayıram!.. Zaman, tarix və təbiət qarşısında nələri etiraf etmək lazımdı, onu da Anar gözəl bilir".

**Yazar Kəramət Böyükçöl isə öz fikirlərini bu cür ifadə edib:** "AYB sədri Anar Rzayevin 85 yaşı olur. Bir dəfə Anar müəllimlə qarşılaşdıq. Üzümə bir xeyli diqqətlə baxdı. Sona dərindən köks ötürüb soruşdu ki, bala, sənin neçə yaşın var? Dedim, 30 olacaq. Yenə dərindən nəfəs aldı, ah çəkib qayıtdı ki, kaş sənin yaşında olaydım. Hiss elədim ki, ömrümə də göz dikib. Onu da əlimdən alıb özü yaşamaq istəyir. Neyləsin, görür yaşaya bilmirəm, ömrü ortalıqda əsir-yesir eləmişəm, deyir, ver mən yaşayım da!".

**Millət vəkili Fazil Mustafa** isə hesab edir ki, yazıçı Anar bütün hallarda Azərbaycan ədəbiyyatının məhək daşlarından biridir. Azərbaycan mədəniyyətinin zənginləşməsi istiqamətində onun gördüyü işlər əvəzsizdir: "85 yaşı tamam olur, təbrik edir, can sağlığı diləyirəm".

**Gənc şair Elmir Həsən:**

- Xalq yazıçısı Anar ədəbiyyat aləmində öz yaratdıqları ilə günümüzdə vaxtından əvvəl yaşayan əfsanəyə çevrilib. Nə gözəl ki, müdafiə edəcəyim dissertasiya mövzusu da Anar müəllimin yaradıcılığını tədqiq edib, daha da öyrənməyə kömək edəcək. Anar müəllimin dəyərini daim qoruyub saxlamaq gərəkdir, çünki o, böyük ədəbi şəxsiyyətdir.

**Şair Əfşan Yusifqızı:**

Bu gün Dədə Qorqud ömürlü, Xalq yazıçısı Anar müəllimin 85 yaşı olur. Bu qocaman çinarın kökü Göyçayda, özü Bakıda şaxələnib, nəhəngləşib. Can sağlığı və 100 il ömür arzulayıram fenomen yazıçımıza. Bəlkə 15 il ərzində Anar müəllimlə yaxından tanışlıq fürsətim oldu. Anar Azərbaycandır!

**Xalq şairi Sabir Rüstəmxanlı isə deyib ki, Anar uzun və məhsuldar ömür yaşayır. Maşallah, sağlamlığı yerindədir. AYB kimi mürəkkəb bir yerə başçılıq edir:** "Yazıb-yaradır, hər il yeni kitabları çap olunur. Həm də bu kitablar məzmununa görə bizim təkcə ədəbi həyatımıza yox, eyni zamanda ölkənin həyatına işıq salan kitablardır. Yaxın və uzaq tariximizi araşdıran, bir çox insanların taleyinə işıq salan, onları xalqa tanıdan, xatirələrlə sənədlərin birgəliyindən yaranan əsərlərdir. Azərbaycanın ədəbiyyatının üzdə olan simaları ilə bağlı çap etdirdiyi kitab var ki, burada tanıdığımız yazıçılara bağlı portretlər, oçerklər var. Bir sözlə, qələmi də, ürəyi də yorulmayıb. İşləyir, çalışır. Allah can sağlığı versin. Mən Anar haqqında bir neçə məqalə yazmışam. Hər halda, Anar ədəbiyyatımızda bir dövrdür, epoxadır. Can sağlığı arzu edirəm, ürəyində yaradıcılığı və millətimizlə bağlı nə arzusu varsa, həyata keçsin".

**P.S. Şərq" qəzeti kollektivi olaraq Xalq yazıçısını ad günü münasibətilə təbrik edir, ona cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. İnanırıq ki, Anar özünün böyük potensialından Tanrının verdiyi ömrü ədəbiyyatımız və dövlətimiz naminə səmərəli şəkildə istifadə edəcək.**

**Şəymən Bayramova**

# Buraxılış imtahanları ilə bağlı hər il narazılıq yaşanır

## Bütün məktəblər ötən illərə nisbətən ümumi bal hesablamasında geriləyiblər

**Martın 12-də Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən ümumtəhsil müəssisələrinin məzunları üçün keçirilən buraxılış imtahanları abituriyentlər və repetitorlar tərəfindən böyük narazılıqla qarşılanıb. Həmin abituriyentlər və repetitorlar imtahan suallarının həddindən artıq qəliz olmasından şikayətləniblər.**

Xüsusən də, XI siniflər üçün keçirilən buraxılış imtahanından sonra sosial şəbəkədə riyaziyyat fənnindən paralelepipedlə bağlı sualın yanlış olduğu ilə bağlı məlumatlar yayılıb.

Məsələ ilə bağlı Dövlət İmtahan Mərkəzindən bildirilib ki, 12 mart 2023-cü il tarixində tam orta təhsil səviyyəsi üzrə keçirilən buraxılış imtahanında riyaziyyat fənnindən qeyd edilən test tapşırığı ilə bağlı müraciət müvafiq fənnin ekspertləri tərəfindən araşdırılıb:

"Bununla əlaqədar olaraq bildiririk ki, şagirdlərə təqdim olunan yazılı cavab tələb edən açıq tipli bu tapşırıq qüvvədə olan təhsil proqramı və dərsliklərdə yer alan və tapşırıqda yoxlanılması nəzərdə tutulan biliklər əsasında elmi-metodiki qaydalara uyğun şəkildə hazırlanan meyarlar əsasında qiymətləndirilə biləcək bir tapşırıqdır. İmtahan iştirakçıları meyarlarla nəticələr elan olunanda tanış ola biləcəklər".

**Təhsil eksperti Tural Elmioğlu "Şərq"ə açıqlamasında buraxılış imtahanları ilə bağlı narazılığın hər il yaşandığını xatırladıb.** Halbuki buraxılış imtahanları ölkədə miqyasına və əhatə dairəsinə görə ən böyük imtahandır. Ali məktəblərə və orta ixtisas təhsili müəssisələrinə qəbul üçün həlledici əhəmiyyət kəsb edir.

Eyni zamanda məhz bu imtahanların nəticələrinə uyğun 11-ci sinifdə



### *Repetitorluq institutunun inkişafında maraqlıyıqsa, heç olmasa, imtahan vaxtını artıraq*

oxuyan şagirdlər imtahanda müvafiq balı yığarsa, məzun olub, attestat ala biləcəklər. Qabiliyyət imtahanı tələb olunan ixtisasları seçən şagirdlərin də bu imtahanda yığdıqları bal keçid bal kimi qəbul olunur.

Orta təhsil müəssisəsinin rəhbəri olduğunu vurğulayan T.Elmioğlu deyib ki, adından da göründüyü kimi, orta məktəblər ümumi və ya tam təhsil verir, universitet təhsili yox: "Bəs niyə buraxılış və blok imtahanlarında mütəxəssislərin mübahisə etdiyi suallar düşür?

Heç kim DİM-in ədalətli və şəffaf olmasına şübhə etmir. Məsələ imtahanların nə qədər ölçücü olmasındadır: Orta təhsildə standart, cümlə üzvləri ilə şagirdləri tanış etməkdir, "Mübtəda nədir?", "Tamamlıq nədir?" suallarına şagird cavab versə, kifayətdir: "Əhməd dünən dostu ilə görüşdü" cümləsinin təhlili kifayətdir ki, şagirdin mövzunu mənimsəyib-mənimsəmədiyi ölçülsün. "Əhməd dünən dostu ilə görüşəndə qəfil yadına düşdü ki, Şahinə də məlumat verməyi unudub" (təsadüfi cümlədir) cümləsi mənim üçün asan ola bilər. Amma bu cümləni sintaktik təhlil edə bilməyən şagird biliksizdirmi? Nəzərə almırıq ki, bu uşaqların neçə faizi filoloq olacaq. Rahatca təklif edə bilərik ki, buraxılış və blok imtahanında Azərbaycan dilindən 100 faiz nəticə göstərən şagirdə elə indidən ali təhsilli filoloq diplomu verilsin. Digər fənlər də onun kimi.

Biz şagirdə 100 kiloqram yük verib deyirik ki, bunu 3 saat ərzində 5 kilometr daşı. Burada artıq iki problem var. Birincisi, yükün həcmi, ikincisi də vaxtın azlığı".

T.Elmioğlu hesab edir ki, 1-ci sinifdən məktəbi bitirənədək hər gün dərsdə olub, hər gün dərslərinə hazır gələn və bütün fənlərdən savadlı, bacarıqlı müəllimlər tərəfindən proqram üzrə dərs alan şagird repetitor yanında hazırlaşmasa, qəbul imtahanlarında ən yaxşı halda 400-450 bal toplaya bilər: "Hələ bu, ideal situasiyadır, gerçəklikdə əksərən belə olmur. Çünki buraxılış və qəbul testologiyası əslində orta məktəb imtahanlarından fərqlidir. O başqa məsələdir ki, biz məcburən özümüzü DİM-ə uyğunlaşdırırıq, çünki əsas sifarişçilər: valideyn, şagird və icra orqanları nəticəni buna əsasən ölçür".

**Ekspertin sözlərinə görə, ildən-ilə imtahan sualları çətinləşdiyi üçün bütün məktəblər ötən illərə nisbətən ümumi bal hesablamasında geriləyiblər, sadəcə bal hesabında daha az geriləyən sıralamada irəliləyir:** "Yaxşı, sualları ildən-ilə çətinləşdirməkdə, repetitorluq institutunun inkişafında maraqlıyıqsa, heç olmasa, imtahan vaxtını artıraq. Maraqlı deyiliksə, DİM-in ekspertlərinə yüksək maaş verilsin və repetitorluqla məşğul olmayacaqları barədə müqavilə bağlansın. Şagirdlər gələcəkdə onlara lazım olmayacaq materialları təfərrüatı ilə öyrənməyə - Sizif əməyinə məcburdurlar. Uşaqları iyrəndirməyək - bu, pafos deyil, şagirdlərini, işini az-çox sevən insanın xahişidir".

**Şəymən**

# Mənzillərin qiyməti daha da bahalaşacaq

## Təkcə Azərbaycanda yox, bütün dünyada daşınmaz əmlak sektorunda ciddi artım müşahidə olunur

**Son günlər Azərbaycan daşınmaz əmlak bazarında mənzillərin satış qiymətində bahalaşma müşahidə olunur. Mənzil sektorunda artıq uzun müddətdir ki, davam edən artım tendensiyası ölkə daxilində bu sahəyə yönəlik təşviqlərin artması, eləcə də xarici alıcı kütləsinin axını ilə birbaşa əlaqəli olduğu qeyd olunur.**

Ekspertlərin araşdırmasına görə, yanvar-fevral aylarında daşınmaz əmlak bazarında təklifin sayı azalıb. Stabillik hökm sürüb. Qiymətlərdə 2-3 faiz bahalaşma müşahidə olunub.

İlin birinci rübündə daşınmaz əmlak bazarında bahalaşma müşahidə ediləcəyini vurğulayan əmlak eksperti Elnur Fərzəliyevin sözlərinə görə, bu bahalaşma 5 faizə qədər olacaq. Onun sözlərinə görə, ötən ilin əvvəlindən sonuna qədər olan qiymətlərdə kəskin və ciddi artım nəzərə çarpır. Xüsusən də köhnə binalarda artım var: "Sökülmək üzrə olan binalarda hazırda 20 faizə qədər qiymət artımı müşahidə olunub. Buna səbəb həmin binaların sökülüb, yerinə yeni bina tikilməsi, həmin binaların sakinlərinə həm kirayə pulu verilməsi, həm də yeni binadan ev verilməsidir. Həm də bu səbəblərdən dolayı əllərində pul olanların da bu binalara marağı artıb, çünki sözügedən binalarda 1-2 otaqlı mənzillər sökülən zaman yerinə tikilən yeni binalarda həmin 1-2 otaqlı mənzillər daha böyük olur və təzə binalarda qiymət daha baha olur deyə köhnə tikililərə maraq daha çox artıb".

"Uniprice" Qiymətləndirmə və Ekspertiza Mərkəzi Azərbaycan daşınmaz əmlak bazarındakı mövcud vəziyyəti təhlil edib.

Daşınmaz əmlak bazarındakı qiymət artımının ilkin səbəbi ipoteka kreditləşməsi ilə bağlı bank sektoruna ayrılan vəsaitin həcmindəki artımdır. Belə ki, 2023-cü ilin yanvar ayında Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu tərəfindən müvəkkil banklara ipoteka kreditləşməsinin həyata keçirilməsi məqsədilə maliyyə vəsaiti ayrılıb.

İpoteka və güzəştli ipoteka kreditlərinin verilməsi üçün nəzərdə tutulan bu limitlər ümumilikdə 2023-cü il üçün nəzərdə tutulub. İpoteka kreditləşməsi ilə bağlı bu artımın təbii olaraq daşınmaz əmlak bazarının canlanmasına, qiymətlərin 5 faiz həcmində artmasına səbəb olacağı və mövcud tendensiyanın aprel ayınadək davam etməsi gözlənilir.



Lakin dövri xarakter daşıyan bu addım daşınmaz əmlak bazarındakı ümumi artım tendensiyasının sadəcə bir hissəsidir. Ümumilikdə son aylarda müşahidə olunan qiymət artımları daşınmaz əmlakın investisiya potensialının dayanıqlılığı ilə birbaşa bağlıdır. Bu gün təkcə Azərbaycanda yox, bütün dünyada daşınmaz əmlak sektorunda ciddi artım müşahidə olunur. Bu artımın əsas səbəbi daşınmaz əmlakın daha səmərəli, uzunömürlü və qazanclı investisiya sahəsinə çevrilməsi, həmçinin valyuta kurslarından baş verən dəyişiklikdən çox az təsirlənməsi ilə bağlıdır. Qeyd olunan məqamlar daşınmaz əmlak sektorunda davamlı və sürətli tələbat artımına, bunun nəticəsində də qiymət indeksinin yüksəlməsinə səbəb olur.

Mərkəzin araşdırmasına görə, mənzil sahəsindəki mövcud tələbat artımı statistik göstəricilərdə daha aydın nəzərə çarpır: "2022-ci ilin dekabr ayında mənzil bazarındakı təkliflərin ümumi həcmində noyabr ayı ilə müqayisədə 5.87 faiz, 2021-ci ilin uyğun dövrü ilə müqayisədə isə 14.96 faiz həcmində artım müşahidə olunur.

Mənzil bazarındakı təklif artımına uyğun şəkildə qiymətlərdə ucuzlaşma yox, əksinə, artım müşahidə olunur. Statistikaya əsasən, 2021-ci ildə mənzillərin 1 kvadratmetrinin dəyəri 1 577 manat (927 dollar) təşkil etdiyi halda, bu göstərici 2022-ci ilin noyabrında 1751 manata (1030 dollar) yüksəlib.

Bu göstəricilər təklif olunan mənzillərə tələbatın yüksək olduğunu, nəticədə mənzil təkliflərinin artması ilə yanaşı qiymətlərdə də artımın olduğunu göstərir.

Azərbaycan daşınmaz əmlak bazarındakı qiymət artımının bir digər səbəbi bu sahəyə yönəlik investisiya fəaliyyətlərinin və buna uyğun olaraq mənzil tələbatının artması ilə bağlıdır. Xüsusilə Rusiya-Ukrayna münaqişəsinin genişlənməsi, Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar Azərbaycan daşınmaz əmlak bazarını rus alıcılar üçün səmərəli investisiya mühitinə çevrilməsinə şərait yaradıb. Coğrafi yaxınlıq və risk potensialının azlığı rus investorların Azərbaycana üz tutmasına və mənzil sektoruna ciddi investisiya yatırmaları ilə nəticələnib.

Oxşar situasiya daha əvvəl 2010-2012-ci illərdə də baş vermiş, dünyanı qlobal böhranın bürüdüyü bir dönəmdə Azərbaycan daşınmaz əmlak bazarı İranlı investorların axınına məruz qalıb. Hazırkı dönəmdə müşahidə olunan qiymət artımları da 10 il əvvəlki situasiyanın təkrarlandığını, xarici investisiya cəlbinin daha da sürətləndiyini və baş verənlərin qiymət artımına səbəb olduğunu deməyə əsas verir.

Digər tərəfdən, son günlərdə Türkiyədə baş vermiş təbii fəlakət də Azərbaycan daşınmaz əmlak bazarının mövqelərinin güclənməsində rol oynayan amillər sırasındadır. Lirənin dəyər itirməsi ilə müşahidə olunan periodda xarici investorları özünə cəlb edən Türkiyə daşınmaz əmlak bazarına diqqətin ən son fəlakətlə birgə azalmağa doğru getdiyi məlumdur. Risk payının çox olduğu Türkiyə ilə müqayisədə daha stabil və dayanıqlı infrastruktura malik Azərbaycan bazarı xarici investorlar üçün daha cəlbedici görünür".

Qeyd edək ki, dünya miqyasında daşınmaz əmlak bazarındakı qiymət artımının stabil qalacağı və orta qiymətin 5.4 faiz həcmində yüksələcəyi, təklif olunan mənzil sayında isə 22.8 faizlik artımın olacağı proqnozlaşdırılır.

Beynəlxalq bazardakı bu qiymət artımının əsas səbəbinin isə 2022-ci ildə mənzil tələbatının sürətlə artması, lakin bu tələbatı qarşılayacaq təklifin azalması göstərilir. 2023-cü ildə təklif artımının bazardakı tələbatı azaldacağı və növbəti illərdə tədricən stabilləşməyə şərait yaradacağı gözlənilir.

Digər tərəfdən, qlobal miqyasda inflyasiya göstəricilərindəki artımın ipoteka faizlərində də artışa səbəb olduğu və bu tendensiyanın mənzil alışına təsir etdiyi müşahidə olunur. ABŞ-də uzunmüddətli ipoteka faizləri 2022-ci ilin əvvəlində 3,25 faizdən 2022-ci ilin oktyabrında 7,25 faizə yüksələrək, iki dəfədən çox artıb. 2022-ci il ipoteka faizlərinin artması və inflyasiyanın yüksəlməsi ilə bağlı olduğu kimi, 2023-cü il də ipoteka faizlərinin düşməsi və inflyasiyanın azalması ilə bağlı olacaq. Nəticədə 2023-cü ildə inflyasiya göstəricilərinin azalması ilə qiymətlərdə və mənzil bazarında durğunlaşmanın olacağı ehtimal edilir.

Qeyd olunan məqamlar və qlobal bazardakı tendensiyalar Azərbaycan daşınmaz əmlak bazarının hazırda dayanıqlı formada inkişaf etdiyini deməyə əsas verir.

Xarici investisiyanın həcminə mütənasib formada təklifin artırılması, eyni zamanda ipoteka imkanları ilə daxili alıcı kütlənin təşviq edilməsi bu sektorun həcminin genişlənməsinin təməl istiqamətlərini təşkil edir.

Mövcud vəziyyət daşınmaz əmlak sektorundakı artım göstəricilərinin 2023-cü il ərzində də davam edəcəyi və bu artımın mənzil qiymətlərinə də təsir edəcəyini göstərir.

**Şəymən Bayramova**

# Xəstəyə vaxtında çata bilmirlər

## Təcili tibbi yardım maşınlarının çağırışa gecikməsi yollarda tıxaclarla bağlıdır




**"Səhiyyə sistemində çox sayda problemlər var".**

Bunu "Şərq"ə həkim, ictimai-siyasi xadim Zəlimxan Məmmədli təcili tibbi yardım xidmətindəki narazılıqlardan danışarkən deyib. Onun sözlərinə görə, təcili tibbi yardımla bağlı şikayətlərin səbəbi müxtəlif ola bilər: "Eyni zamanda təcili tibbi yardım maşınlarının çağırışa gecikməsi yollarda tıxacların yaranması ilə də əlaqəlidir. Nəticədə xəstənin yanına vaxtında çata bilmirlər. Məsələyə kompleks yanaşılmalıdır".

Z.Məmmədli diqqətə çatdırıb ki, səhiyyə sisteminin özündə də ikihakimiyyətlilik var: "Səhiyyə Nazirliyi və TƏBİB arasında səlahiyyət bölgüləri bəzi hallarda psixoloji, amansız, mövqe uğrunda savaşa gətirib çıxarır. Beləliklə, neqativ hallarla qarşılaşırıq. Ölkədə təcili tibbi yardım maşınlarının sayının statistikasından məlumatım yoxdur. Hər halda normativlər əsasında, əhalinin sayına görə maşın olmalıdır".

*Qeyd edək ki, təcili tibbi yardım xidməti ilə bağlı narazılıqlar var. Vətəndaşlar sosial şəbəkələrdə təcili tibbi yardım maşınlarının sayının azlığından şikayət edirlər.*

**Sücayət**

# Mələkxanım Eyubova: "Övlad kimi sevirsə, onunla da evlənməlidir"



**"Övladlarımın Ramal, Mirkamil kimi musiqi istedadı olmadı. Onlar başqa sahədə inkişaf etdilər. Qızım Nəzrinin başqa yolu var, rəssamlıqla məşğuldur. Böyük oğlum proqramistdir. Kiçik oğlumun isə başqa istedadı var. Böyük qızım isə ailəlidir. Uşaqları valideynin yönəltməsinin tərəfdarı deyiləm".**

Bu sözləri Xalq artisti Mələkxanım Eyubova "Səhər mərkəzi" verilişində deyib. Xanəndə valideynlərin övladın seçimlərinə qarışmasını tənqid edib:

"Valideyn deməməlidir ki, bu yolla get, onunla evlən. Valideyn dəstək olmalıdır, uşaq hansı sahəyə özünü hazır bilirsə, o yolda özünü inkişaf etdirsin. Bəzi valideynlər məcbur deyir oxumalısan. Heç uşağın səsi də yoxdur. Kimi sevir evlənsin, hansı sənəti istəyir ona doğru getsin".

**Elan**

Qanuni təmsilçi Babayev Elnur Həsənağa oğluna məxsus, 22.01.2009-cu il tarixli 0904020001250600 nömrəli, 3500155021 dövlət qeydiyyatlı "İşıqlı Tikinti" Məhdud Məsuliyyətli Cəmiyyətin möhürü itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 718



# “Yoldaşlıq deyil, Qardaşlıq oyunu"

## “Qarabağ” ”Qalatasaray”la oynanılacaq yoldaşlıq görüşü ilə bağlı paylaşım edib

**“Qarabağ” klubu martın 26-da keçiriləcək yoldaşlıq oyunu ilə bağlı paylaşım edib.**

“Köhlən atlar” rəsmi feysbuk hesabında ”Yoldaşlıq deyil, Qardaşlıq oyunu” yazıb.

Azərbaycan çempionu qarşılaşmadan əldə olunacaq bütün gəlirlərin Türkiyədə baş vermiş zəlzələdən əziyyət çəkənlərə yardım üçün göndəriləcəyini vurğulayıb.

*Xatırladaq ki, ”Qarabağ” və ”Qalatasaray” martın 26-da saat 20:00-da Bakı Olimpiya Stadionunda görüşəcəklər.*

# Məhkəmə qərar qəbul edib

## Boşandığı həyat yoldaşına ev işləri üçün 205 min avro təzminat ödəyəcək



**İspaniyanın Malaqa şəhərində qadın boşandığı ərindən 25 illik zəhməti müqabilində 205 min avro (4 milyon TL) təzminat almağa haqq qazanıb.**

Məhkəmə qadının evli olduğu müddətdə işdən çıxdığını, gördüyü ev işlərini və uşaqlarına qulluq etməsini nəzərə alaraq, ərin təzminat ödəməsi barədə qərar qəbul edib.

48 yaşlı qadın deyir ki, təzminat onun 25 illik zəhmətinin mükafatıdır. Bildirilir ki, məhkəmə qərarından apellyasiya şikayəti verilib.

**Turan**

# Su yeməkdən sonra içilməlidir

## Qənaət və sağlamlığa hər kəs diqqət etməlidir



**Su israfçılığına qarşı kampaniyaya qida mütəxəssisləri də qoşulub. Qida təhlükəsizliyi üzrə ekspert Ağa Salamov sudan necə istifadə barədə fikirlərini paylaşıb.**

Mütəxəssis ”Şərq” açıqlamasında qeyd etdi ki, su qıtlığı ciddi problemdir, hər kəs məişətdə suya qənaət etməli olduğu kimi sağlamlıqla bağlı da sudan düzgün istifadə qaydasını bilməlidir: - Adətən insanları bu sual maraqlandırır: su nə vaxt içilməlidir? Yeməkdən öncə, yoxsa sonra? Yeməkdən sonra içilən su bağırsağa keçə bilmədiyi üçün mədəni genişləndirir, eyni zamanda mədə turşusunu zəiflədir və həzm prosesini uzadaraq çətinləşdirir. Yemək arasında su içmək daha da qarışıq bir mənzərə meydana gətirir, çünki yemək vaxtı su içən insan qidanı yaxşı çeynəyə bilmir, tüpürcək vəzləri lazım olan miqdarda enzim ifraz edə bilmir və nəticədə həzm sistemi qida ağızda ikən pozulur. Beləliklə, içilən su mədə turşusunun zəifləməsinə, mədənin genişlənməsinə, qaraciyər və dalağın yüklənməsinə səbəb olur.

Mütəxəssis qeyd etdi ki, yeməkdən 1,5 - 3 saat sonra su içmək daha məqsədəuyğundur:

- Çünki mədə turşusu qidanı həzm etməyə istifadə olunur və mədədəki maddələr nazik bağırsağa keçməyə hazır vəziyyətə gəlir. Su içmək üçün ən unikal vaxt budur və bu arada insanın susamış olması da normaldır. Təsadüfi deyil ki, Allah ”Qurani- Kərim”də əl-Əraf surəsi 31-ci ayədə belə buyurur: ”Ey Adəm oğulları, yeyin-için, lakin israf etməyin, çünki Allah israf edənləri sevməz”. Ayədə də göründüyü kimi suyun içilməsi yeməkdən sonra buyrulub. Bu arada bir qeyd də etmək istəyirəm ki, quru qida istehlak edirsinizsə, ağıza qoyulan hər tikədə həddi aşmadan bir qurtum su içmək problem yaratmaz.

**Məlahət**

# Dünyanın ən güclü külək turbine...

## Bu ilin sonunda təqdim ediləcək



**Ən böyük külək turbin istehsalçılarından biri olan ”General Electric” (GE), 17-18 meqavatlıq (MW) ”Haliade-X” dəniz külək turbinini inkişaf etdirdiklərini açıqlayıb.**

Trend-in məlumatına görə, turbin istehsalçıları daha çox enerji istehsal etmək üçün hər gün daha böyük dizaynlar təklif edirlər. Yanvar ayında Çinin CSSC ”Haizhuang” şirkəti 18 MVt gücündə dəniz külək turbininin prototipini təqdim edib. Rotorun diametri 260 metr olacaq. Külək turbinin isə 128 metr qanadları və 53 min kvadratmetrlik axtarış sahəsi olacaq.

GE keçən dekabr ayında 12 MVt-dan çox enerji istehsal edə bilən ”Haliade-X” modelini təqdim edib. Şirkət həmçinin bu model üçün dünyanın ən böyük müstəqil sertifikatlaşdırma orqanı olan DNV-dən 14,7 MVt-a qədər əməliyyatlar üçün istifadə sertifikatı alıb. Şirkətin ”Haliade-X” modeli hazırda ən güclü külək turbinidir. Dekabr ayında təqdim edilən bu turbindən sonra şirkət yeni və daha böyük külək turbinləri üçün də güc qazanıb. ”General Electric” bu il 17-18 MW ”Haliade-X” versiyasını işə salmağı planlaşdırır. Şirkət yeni model haqqında hələlik heç bir təfərrüat paylaşmayıb.



# Everestə təkbaşına dırmanmaq olmaz

## Artıq qadağa bütün hündür zirvələrə şamil edilib

**Everest (Comolungma) zirvəsinə təkbaşına dırmanmağa 5 il əvvəl tətbiq olunan qadağa Nepalın bütün hündür zirvələrinə şamil edilib artıq. ”Şərq” ”Habertrük”ə istinadən bildirir ki, bu barədə CNN məlumat yayıb. Məlumatda qeyd edilir ki, Nepal hökuməti Everest də daxil, ölkə ərazisindəki bütün digər dağ zirvələrinə təkbaşına dırmanmağı yasaqlayır.**

Hökumət bundan sonra dağ zirvələrinə dırmanmağa, ya da turlar təşkil edilməsinə yalnız xüsusi təhsil almış və təlim keçmiş şəxslərin rəhbərliyi ilə, ya da alpinistin müşayiəti ilə qrup halında izin verəcək. Nepal Turizm Qurumunun direktoru Mani R.Lamican bildirib ki, fərdi qaydada səyahət edən insanlara fövqəladə vəziyyətlərdə yardım edəcək kimsə olmur. Şəhərlərdə bununla bağlı sıxıntı yoxdur, təcili kömək göstərilə bilir, lakin dağlarda bu, mümkün olmur, çünki uyğun infrastruktur hələ tam formalaşmayıb. Turistlər itkin düşdükdə və ya həlak olduqda hökumətin onları təqib etməsi, itkinlərin tapılması, ailələrinə çatdırılması çox çətinləşir. Turistlər, səyahətsevətlər ən çətin, uzaq yollardan istifadə edir. Bu da onların axtarışını çətinləşdirir. Direktor deyib ki, turizm şirkətləri də izinsiz səyahətlərin dayandırılmasını tələb edir. Qeyd edilir ki, qəzaların sayını azaltmaq məqsədilə Nepal hökuməti 2018-ci ildən Everestə təkbaşına dırmanmağı qadağan edib. 2023-cü il 1 aprel tarixindənsə bu qadağa ölkə ərazisindəki bütün dağ zirvələrini əhatə edəcək. 8 min 848 metr yüksəkliyə malik Everestdə 1920-ci ildən bugünədək 200-dən artıq insan həyatını itirib.



**Məlahət**



# Küçə pişiyi ulduz oldu

## Gacek o qədər məşhurlaşıb ki, hətta ”Google” xəritəsinə düşüb



**Polşanın Szczecin şəhərinə gələn turistlər Gacek adlı pişiyi ziyarətdən vaz keçmirlər. Gacek, əslində sahibsiz, küçə pişiyidir.**

Lakin bir video paylaşımı ilə o qədər məşhurlaşıb ki, hətta ”Google” xəritəsinə düşüb. Şəhəri gəzənlər tarixi yerləri ziyarət etməklə yanaşı Gacekə mütləq baş çəkirlər. ”Şərq” ”Milliyet.com”a istinadən bildirir ki, ağ-qara rəngli, ”smoking” pişik hazırda şəhərin 1 nömrəli turistik nöqtəsi hesab edilir. Gacek barədə 4 min rəy yazılıb və o, ”Youtube” kanalında izləyici rəyləri əsasında 5 ”ulduz”a layiq görülüb. Hər şey bir turist xanımın ”heyranlarına layiq gözəl bir toppuş!” ifadəsini yazıb pişiyin fotosunu paylaşmaqla başlayıb. Onu görən hər kəs heyran olub və beləcə Gacek Polşanın Szczecin şəhəri sakinləirinin, həmçinin şəhərə gələnlərin sevimlisinə çevrilib. İngiltərədən Polşaya səyahət edən Royu adlı istifadəçi isə ”Lancasterdən onu görməyə gəldim. Bir az söhbət etdik, kefi yerindəydi...” sözlərini yazıb. Başqa birisi isə ”3 saat yol qət etdiyimə dəydi. Onu gördüm”, qeydini edib. Bir neçə gün öncə Gacek ”Google” xəritələrindən silinib. Lakin qısa müddət sonra yenidən görünüb. Heyranları isə ona yenidən ”ulduz”lar göndərməyə davam edib. Qeyd edilir ki, oxşar hadisə 2021-ci ildə də baş verib. Polşanın Qdansk şəhərində retriever cinsli köpək ”eyvandakı köpək” adıyla ”Google” xəritələrdə məşhurlaşmışdı. Amma sonra fotosu silinmişdi. İndi də ”Google” xəritələr pişik Gacekin fotosunun silinmə səbəbini soruşan ”Washington Post” müxbirinə cavab verəcəyini bildirib, lakin hələ də cavab yoxdur. Cavab aranmağında, turistlərsə Gaceki ziyarət etməkdədir. Hətta onu görmədən, sığallamadan şəhəri tərk etmək istəməyənlər başqa tarixi yerlərin ziyarətini ləğv edib pişiyi görməyə tələsirlər. Gacek 7 ildir küçədə yaşayır və hər kəslə ”dil tapa bilir”. Gacekin adına instagram hesabı da açılıb, 22 min izləyicisi var. Onun adına feysbuk səhifəsi də açılıb. Gacekə nəzarət edənlər gələnlərdən ”onu yemləməyin, çox kökəlir”, desələr də, hər kəs Gaceki nəyəsə qonaq etmək istəyir.

**Məlahət**

# Bu adam 50 ildir edam cəzasının icrasını gözləyir



**Yaponiyanın Ali məhkəməsi dörd nəfərlik ailənin qətlində ittiham edilərək edam cəzasına məhkum olunmuş 87 yaşlı İvao Hakamadanın işinə yenidən baxılması barədə qərarı qüvvədə saxlayıb.**

Azərtac BBC telekanalına istinadla xəbər verir ki, İvao Hakamada artıq 50 ildir ölüm hökmünün icrasını gözləyir. Peşəkar boksçu olan Hakamada öz rəisini, onun həyat yoldaşını və iki qızını qətlə yetirməkdə şübhəli bilinərək 1968-ci ildə həbs olunmuşdu. Həbsindən 20 gün sonra o, qətl törətdiyini etiraf etmişdi. Lakin məhkəmədə demişdi ki, ona işgəncə verərək ifadə alıblar. Vəkillər isə müstəntiqlərin dəlilləri saxtalaşdırdığını iddia etmişdilər.

2014-cü ildə Yaponiya regional məhkəməsi sübutların saxta ola biləcəyi ehtimalını nəzərə alaraq təkrar iclas keçirmək qərarına gəlib və İvao Hakamadanı azadlığa buraxıb. Tokio məhkəməsi qərarı ləğv etsə də, Ali məhkəmə onu qüvvədə saxlayıb.

Mövcud qaydalara görə, cinayət işinin yenidən baxılmasına illərlə vaxt lazım gələ bilər və vəkillər bu prosedurun qısaldılmasına çağırır.

# 50 ildə yüzlərlə elektron əşya unudulub

## Onun mağazasında addım atmağa yer yoxdur




**Kastamonuda yaşayan 70 yaşlı Veysel Karakayanın işi başından aşır. Ahıl kişi şəhərin mərkəzindəki iş yerində 50 ildir nasaz olan elektron məhsulları təmir edir.**

Yaşına baxmayaraq işini buraxmayan Karakaya 50 ildir təmir üçün iş yerinə gətirilən unudulmuş əşyaları toplayır. İşdə hər yeri əhatə edən elektron əşyalar görənləri heyrətə gətirir.

Veysel Karakayaya işləyə biləcəyi yalnız balaca bir yer qalıb. Karakaya uzun illər sahibləri tərəfindən geri alınmayan əşyaların hissələrini təmir etdiyi elektron cihazlarda istifadə edir.

Ölənə qədər peşəsini davam etdirəcəyini dilə gətirən Karakaya bunları deyib: ”Mağaza müştərilərin unutduğu və ala bilmədiyi məhsullarla doludur. Mənə lazım olan materiallardan istifadə edirəm. Bəzən heç yerdə tapılmayan bir parçaya ehtiyacım olur, işlədirəm və bundan müştərilər sevinir.

Dükanımda yer olmadığı üçün şagird götürə bilmirəm. Min TL-lik bir iş görürəm, amma cəmi 50 TL və ya 100 TL alıram. Müştərilər də çox razıdırlar.

**Turan**